# Qazaxıstanlı jurnalistlər Füzuliyə səfər ediblər




**Qazaxıstan KİV və ictimaiyyət nümayəndələri işğaldan azad olunmuş Füzuli rayonuna səfərləri zamanı dağıdılmış dini abidələr, qəbiristanlıq və kəndlər, həmçinin, yeni inşa olunmuş Füzuli Beynəlxalq Hava Limanı ilə tanış olublar.**

Bu barədə Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov Tvitter səhifəsində məlumat verib.



## Şuşada Xarıbülbül çiçək açmağa başlayıb

**Şuşada Xarıbülbül çiçək açmağa başlayıb.**

Bununla bağlı feysbukda Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin rəsmi səhifəsində fotolar paylaşılıb.

"Əziz Şuşanın simvolu sayılan Xarıbülbül gülü artıq çiçək açmağa başlayıb", - paylaşımda qeyd edilib.

№ 72 (5594), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 26 aprel 2022-ci il (çərşənbə axşamı)



# Azərbaycan vətəndaşları ən çox Türkiyəyə səfər edib

Gedənlərin 66,4 faizini kişilər, 33,6 faizini qadınlar təşkil edib

**2021-ci ilin yanvar-mart ayları ilə müqayisədə bu il xarici ölkələrə gedən Azərbaycan Respublikası vətəndaşlarının ümumi sayı 2,7 dəfə artaraq 298,5 min nəfər olub.**

İrana gedən Azərbaycan Respublikası vətəndaşlarının sayı 5,1 dəfə, Rusiya Federasiyasına gedənlərin sayı 2,6 dəfə, Türkiyəyə gedənlərin sayı 2,6 dəfə, Gürcüstana gedənlərin sayı isə 2,3 dəfə artıb.

Ölkə vətəndaşlarının 44,5 faizi Türkiyəyə, 18,7 faizi Rusiya Federasiyasına, 12,9 faizi İrana, 8,0 faizi Gürcüstana, 15,9 faizi digər ölkələrə səfər edib. Gedənlərin 66,4 faizini kişilər, 33,6 faizini qadınlar təşkil edib.

2022-ci ilin yanvar-mart aylarında xarici ölkələrə səfər edən Azərbaycan Respublikası vətəndaşlarının 58,4 faizi hava, 39,2 faizi dəmir yolu və avtomobil, 2,4 faizi isə dəniz nəqliyyatından istifadə edib.



## Prezident İlham Əliyev Emmanuel Makronu təbrik edib

**Prezident İlham Əliyev Fransa Respublikasının Prezidenti Emmanuel Makrona təbrik məktubu göndərib.**

*Məktubda deyilir:*

"Hörmətli cənab Prezident,

Fransa Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi təbrik edirəm.

Bu il Azərbaycan ilə Fransa arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi qeyd olunur. İqtisadiyyat, energetika, o cümlədən neft-qaz yataqlarının istismarı, mədəniyyət, təhsil və qarşılıqlı maraq doğuran bir sıra digər sahələrdə uğurlu əməkdaşlıq əlaqələrimizi şərtləndirən başlıca amillərdəndir.

(səh.2)

## Ərdoğan Putinlə Ukraynadakı vəziyyəti müzakirə edəcək



**"Rusiya-Ukrayna savaşının sülhlə başa çatması üçün təşəbbüslərimizi davam etdiririk".**

"Report" xəbər verir ki, bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan deyib.

"Bu gün BMT Baş katibi Antonio Qutteresi qəbul etdim. Onunla mövcud durumla bağlı fikir mübadiləsi apardıq. Ötən günlərdə ukraynalı həmkarım Volodimir Zelenski ilə danışdım. Sabah da rusiyalı həmkarım Vladimir Putinlə danışacağam. İstanbul müzakirəsi sülh üçün ən mühüm zəmindir", - o bildirib.

# Yenə Kreml izi...

## Sərhəddə təxribatların davam edəcəyi gözləniləndir



"Şəraiti Rusiya sərhədçiləri yaradıb. Bununla Moskva Brüssel razılaşmasını pozmağa, öz vasitəçiliyinin önə çıxmasına çalışır"

**Ermənistan Silahlı Qüvvələri Azərbaycan ərazisində növbəti təxribata cəhd edib. Aprelin 23-də ermənilərin təxribat-diversiya qrupu Azərbaycan-Ermənistan dövlət sərhədinin Zəngilan rayonu ərazisində dövlət sərhədini keçmək istəyərkən zərərsizləşdirilib.**

Hadisə ilə bağlı Ermənistanın təxribatı ilə bağlı Rusiya Federasiyasının Federal Sərhəd Xidmətinin Ermənistandakı sərhəd idarəsinin nümayəndələri də məlumatlandırılıb. Dövlət Sərhəd Xidmətinin bəyan edib ki, təkrar belə bir hadisə baş verərsə, daha ciddi tədbirlər görüləcək.

(səh.4)

# Ermənistana tam güvənmək olmaz




Ona görə də sülhə məcburetmə siyasətini davam etdirməliyik

Azərbaycan Xarici işlər naziri Ceyhun Bayramovla Ermənistan xarici işlər naziri Ararat Mirzoyan arasında telefon danışığı baş tutub. Nazirlər, iki dövlətin liderləri səviyyəsində əldə olunmuş razılaşmaların davamı olaraq fikir mübadiləsi aparıblar.

(səh.3)




## Umayra Tağıyeva: "Ölkəyə Orta Asiyadan toz kütlələri daxil olub"

**"Peyk görüntülərinə və toz proqnoz modellərinə əsasən, bu gün günorta saatlarından başlayaraq ölkə ərazisinə şərq və cənub-şərq küləkləri vasitəsilə Orta Asiyadan toz kütlələri daxil olub".**

Bunu Milli Hidrometeorologiya Xidmətinin rəisi Umayra Tağıyeva bildirib.

"Avtomatik stansiyalardan əldə etdiyimiz məlumatlara əsasən, hazırda havada dispers toz hissəciklərinin miqdarı Nizami, Xətai və Səbail rayonlarında normadan 2 dəfəyədək yüksəkdir", - o qeyd edib.

Umayra Tağıyevanın sözlərinə görə, meteoroloji şəraitdən asılı olaraq yaxın iki gün ərzində havada tozun miqdarının normadan çox olacağı gözlənilir.

## Ölən yoxdur

Azərbaycanda 6 nəfər koronavirusa yoluxub




**Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına 6 yeni yoluxma faktı qeydə alınıb, 4 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, ölüm faktı qeydə alınmayıb.

Azərbaycanda indiyədək ölkədə ümumilikdə 792 502 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 782 650 nəfər müalicə olunaraq sağalıb, 9 707 nəfər vəfat edib, aktiv xəstə sayı 145 nəfərdir.

*Ölkədə son sutka ərzində 2 400, hazırkı dövrədək isə 6 797 352 test aparılıb.*

## Bakıda mənzildən meyit tapılıb



**Bakıda mənzildən meyit tapılıb.**

Fövqəladə Hallar Nazirliyindən APA-ya verilən xəbərə görə, nazirliyin "112" qaynar telefon xəttinə Bakı şəhərinin Binəqədi rayonunda 1 nəfərin mənzildə bağlı qapı arxasında köməksiz vəziyyətdə qalması haqqında məlumat verilib.

Hadisə yerinə cəlb olunan FHN-in Xüsusi Riskli Xilasetmə Xidmətinin müvafiq xilasetmə qüvvələri mənzilin giriş qapısını açıb və orada aşkarlanan 1 nəfərin meyitini (şəxsiyyəti dəqiqləşdirilir) aidiyyəti üzrə təhvil veriblər.



## Ermənistan Minsk qrupunun "dirilməsini" istəyir

Fuad Abbasov: "Biz yaxşı bilirik ki, erməni tərəfi özbaşına Rusiyanın razılığını almadan addım atan deyil"

(səh.4)

## Səməd Seyidov yaz sessiyasında sərt danışdı

"AŞPA-dakı erməni deputatlar Azərbaycanın sülh addımlarına kölgə salmağa çalışırlar"

(səh.2)



## Lavrov: “Ukraynadakı münaqişə müqavilə ilə başa çatacaq”



**”Ukraynadakı münaqişə müqavilə ilə başa çatacaq”.**

APA xəbər verir ki, bu bardə Rusiyanın xarici işlər naziri Sergey Lavrov Birinci Kanalda Böyük Oyun proqramındakı çıxışında bildirib.

Onun sözlərinə görə, müqavilənin parametrləri hərbi əməliyyatların mərhələsi ilə müəyyən ediləcək.

”Silahlı qüvvələrin tətbiqi zamanı hər bir vəziyyətdə olduğu kimi, əlbəttə ki, hər şey müqavilə ilə başa çatacaq, lakin bu müqavilənin parametrləri bu müqavilənin reallaşacağı hərbi əməliyyatların mərhələsi ilə müəyyən ediləcək”, - deyə nazir bildirib.

Lavrov bildirib ki. Ukrayna tərəfi ilə sülh nizamlanmasının konturları arasında əlaqə var. ”Biz, əlbəttə ki, hər şeydən əvvəl Ukrayna xalqının necə yaşayacağına özü qərar verməsini istəyirik”, - deyə Lavrov bildirib.

# Prezident İlham Əliyev Emmanuel Makronu təbrik edib



**Prezident İlham Əliyev Fransa Respublikasının Prezidenti Emmanuel Makrona təbrik məktubu göndərib.**

*Məktubda deyilir:*

”Hörmətli cənab Prezident,

Fransa Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi təbrik edirəm.

Bu il Azərbaycan ilə Fransa arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi qeyd olunur. İqtisadiyyat, energetika, o cümlədən neft-qaz yataqlarının istismarı, mədəniyyət, təhsil və qarşılıqlı maraq doğuran bir sıra digər sahələrdə uğurlu əməkdaşlıq əlaqələrimizi şərtləndirən başlıca amillərdəndir. Bu əməkdaşlığın bundan sonra da xalqlarımızın mənafeyi naminə birgə səylərimizlə davam etdiriləcəyinə inanıram.

Ümidvarıq ki, hazırda Avropa İttifaqına sədrlik edən Fransa Respublikası Cənubi Qafqazda davamlı sülhün və sabitliyin təmin olunması məqsədilə Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması, tərəfimizdən təqdim edilən beş prinsip əsasında ölkələr arasında sülh müqaviləsinin hazırlanması prosesinə öz dəstəyini verəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, qarşıdakı fəaliyyətinizdə müvəffəqiyyətlər diləyirəm”.



# Prezident Rusiyanın xüsusi nümayəndəsini qəbul edib

### Görüşdə Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması müzakirə olunub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dünən Rusiya Federasiyasının Xarici İşlər Nazirliyinin Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması üzrə xüsusi nümayəndəsi İqor Xovayevi qəbul edib.**

Görüşdə Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması, sərhədlərin delimitasiyası və demarkasiyası, Azərbaycan tərəfinin təqdim etdiyi 5 prinsip əsasında iki ölkə arasında sülh müqaviləsinin hazırlanması məsələləri müzakirə olundu.

Prezident İlham Əliyev sülh müqaviləsinin hazırlanması üzrə Azərbaycan nümayəndə heyətinin və iki ölkə arasında sərhədlərin delimitasiyası və demarkasiyası üzrə Azərbaycan milli komissiyasının tərkibinin müəyyən edildiyini vurğuladı, ölkəmizin Ermənistanla danışıqlara hazır olduğunu qeyd etdi.

*Söhbət zamanı qarşılıqlı maraq doğuran digər regional məsələlər ətrafında da fikir mübadiləsi aparıldı.*

## Erika Olson Azərbaycan rəsmiləri ilə görüşlər keçirəcək

### ABŞ Dövlət Katibinin köməkçisinin müavini Bakıya gəlir



**ABŞ-ın Avropa və Avrasiya Məsələləri üzrə Dövlət Katibinin köməkçisinin müavini Erika Olson Azərbaycana səfər edərək hökumət rəsmiləri ilə görüşlər keçirəcək və aprelin 27-28-də Bakıda yer alan missiya rəhbərlərinin konfransına qatılacaq.**

ABŞ-ın Azərbaycandakı Səfirliyindən Trend-ə bildirilib ki, sözügedən konfransda ABŞ-ın Azərbaycandakı səfiri Erl Litzenberqer, ABŞ-ın Gürcüstandakı səfiri Kelli Deqnan, ABŞ-ın Ermənistandakı səfiri Linn Treysi, USAİD təşkilatının Administratorunun köməkçisinin müavini Mark Simakovski, ABŞ-ın Avropa və Avrasiya Yardım Məsələləri üzrə İcraçı Koordinatoru Qreq Naarden və Qavqaz Danışıqlarına dair Baş məsləhətçi Endryu Şofer iştirak edirlər. Bu kimi missiya rəhbərlərinin konfransları müntəzəm olaraq keçirilir.

Son konfransa 2021-ci ildə ABŞ-ın İrəvandakı səfirliyi ev sahibliyi etmişdir. ABŞ-ın Bakıdakı və Tiflisdəki səfirlikləri 2019 və 2018-ci illərdə keçirilən konfransları təşkil etmişdi. COVİD-19 səbəbindən 2020-ci ildə konfrans keçirilməmişdir.

# Səməd Seyidov yaz sessiyasında sərt danışdı

### “AŞPA-dakı erməni deputatlar Azərbaycanın sülh addımlarına kölgə salmağa çalışırlar”

**”Avropa Şurası vaxtında Qarabağda azərbaycanlıların etnik təmizlənməyə məruz qalmasına göz yummasaydı, Avropada bundan sonrakı müharibələr də baş verməzdi”.**

”Report”un yerli bürosu xəbər verir ki, bunu Azərbaycanın Avropa Şurası Parlament Assambleyasındakı (AŞPA) nümayəndə heyətinin rəhbəri Səməd Seyidov qurumun dünən işə başlayan yaz sessiyası zamanı bildirib.

Onun sözlərinə görə, Ermənistanın AŞPA-dakı nümayəndə heyətinin üzvləri qurumun üzvlərini səhv yola çəkirlər: ”Ermənistan nümayəndə heyətinin bəzi üzvləri Azərbaycanın sülh naminə atdığı addımların üzərinə kölgə salmağa çalışırlar. Onlar sülhə çalışan ermənilərin arzularına qarşı getməyə cəhd göstərirlər. Ermənistan nümayəndə heyətinin üzvləri azərbaycanlıların Qarabağa, öz doğma dədə-baba yurdlarına bu ərazilərin minalanması səbəbindən qayıda bilməmələrindən danışmırlar”.



S.Seyidov deyib ki, Azərbaycan Ermənistanla sülh münasibətlərinin qurulmasına çalışır: ”Avropa Şurası yanında komissiya yaradılmalıdır ki, sülhün yaradılmasına yardım etsin. Burada müharibədən çox danışılıb. Artıq Avropa Şurasının əsas dəyərlərinə qayıtmağın vaxtı çatıb”.



## Türkiyə ilə İran sərhədində beton sədd tikilir

**Türkiyə ilə İran sərhədində beton sədd tikilir.**

Trend-in TurkicWorld-a istinadən məlumatına görə, bu haqda Türkiyənin Daxili İşlər Naziri Süleyman Soylu bildirb.

S.Soylu Van-İran sərhəd xəttindəki qeyri-qanuni keçidlərin qarşısını almaq üçün 295 kilometr uzunluqda divarın 2023-cü ildə tamamlanacağını qeyd edib.

”Bu vaxta qədər Ağrı, İğdır sərhədləri və Ermənistanla olan sərhədlərimizdə divar inşası işləri aparılıb” - deyə nazir əlavə edib.

Məlumat üçün bildirək ki, Türkiyədə bu günə qədər, xüsusilə Ağrı və İğdır sərhədində 191 kilometr, Suriya sərhədində isə 837 kilometr uzunluğunda divar tikilib.

## Ərdoğan ABŞ Prezidentini tənqid edib

### “Bayden əvvəlcə ermənilərin tarixini öyrənsin”



**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ABŞ Prezidenti Co Baydenin 1915-ci il hadisələri ilə bağlı bəyanatına münasibət bildirib.**

Trend xəbər verir ki, R.T.Ərdoğan qeyd edib ki, ABŞ dövlət başçısının bəyanatının üzərində dayanmağa dəyməz.

“Bayden əvvəlcə ermənilərin tarixini öyrənsin”, - deyə o vurğulayıb.

## Polad Bülbüloğlu: "Mən heç bir qəza törətməmişəm"



**”Mənim Bakıda avtomobil qəzası törətməyim barədə məlumatın heç bir əsası yoxdur”.**

Bunu APA-ya açıqlamasında Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu idarə etdiyi BMW markalı avtomobillə taksi fəaliyyəti ilə məşğul olan ”Mercedes” markalı maşını vurması barədə xəbərlərlə bağlı deyib.

Diplomat bildirib ki, Xəqani küçəsində hərəkətdə olarkən ”Mercedes”in sürücüsü onun maşının vurulduğunu iddia edib:

”Mən də onun maşınına yaxınlaşdım, bildirdim ki, hansı hissədən vurduğumu, toxunmanın izlərini, maşına dəyən ziyanı göstərsin. Göstərə bilmədi, çünki belə şey olmayıb. Mən heç bir qəza törətməmişəm”.

# Ceyhun Bayramov ATƏT-in media azadlığı üzrə nümayəndəsi ilə görüşüb

### Azərbaycanda media azadlığı istiqamətində görülən işlər barəsində fikir mübadiləsi aparılıb

**25 aprel 2022-ci il tarixində xarici işlər naziri Ceyhun Bayramov Azərbaycana səfəri çərçivəsində ATƏT-in media azadlığı üzrə nümayəndəsi Teresa Ribeiro ilə görüşüb.**



Xarici İşlər Nazirliyindən ”Şərq”ə verilən məlumata görə, görüşdə Azərbaycanda media azadlığı istiqamətində görülən işlər barəsində fikir mübadiləsi aparılıb.

Nazir Ceyhun Bayramov Azərbaycanın ATƏT ilə bütün istiqamətlər, o cümlədən media azadlığı sahəsində əməkdaşlığa əhəmiyyət verdiyini qeyd edib. Nazir, qarşı tərəfə münaqişə sonrası bölgədə mövcud olan vəziyyət, iki dövlət arasında münasibətlərin normallaşması istiqamətində atılan addımlar, habelə Azərbaycan hökuməti tərəfindən azad olunmuş ərazilərdə aparılan işlər, qurbanları arasında jurnalistlərin də olduğu mina təhlükəsi və minaların təmizlənməsi işləri, habelə bölgədə etimadın quruculuğu sahəsində medianın rolu barədə məlumat verib.

Xanım Teresa Ribeiro Azərbaycana səfəri çərçivəsində zəngin proqramın təşkilini qeyd edib. ətraflı məlumatın təqdim edilməsinə görə nazir Ceyhun Bayramova təşəkkür ifadə edib. Media azadlığının sülh və təhlükəsizliyin əsas elementi olduğunu qeyd edən nümayəndə, etimad quruculuğu tədbirləri çərçivəsində media nümayəndələrinin rolunu vurğulayıb və bu xüsusda ATƏT-in müvafiq dəstəyi göstərə biləcəyini bildirib.

Görüşdə tərəflər arasında dialoqun davam etdirilməsinin əhəmiyyəti vurğulanıb.

## Paşinyanın karikaturası göründü

### İrəvanda müxalifətçilərlə polis arasında toqquşma olub



**Ermənistanın paytaxtı İrəvanda müxalifətin Baş nazir Nikol Paşinyanın istefası tələbi ilə keçirdiyi yürüşündə polislə toqquşma baş verib.**

”Report”un məlumatına görə, bu barədə ”RİA Novosti” xəbər verib.

Yürüş axşam saatlarında başlayıb. Aksiyaya Müqəddəs Xaç kilsəsindən start verilib. Etirazçılar şəhərin mərkəzinə doğru gediblər.

Toqquşmaya səbəb deputat Qeqam Manukyanın Paşinyanın karikaturası ilə dirəyə dırmaşması olub. Polis aksiyaya müdaxilə etməyə çalışsa da, deputat planını tamamlaya bilib. Sonra polis karikaturanı cırıb və yürüş davam edib.

## Böyük Britaniya Azərbaycana yeni səfir təyin edib



**Ferqus Old Böyük Britaniyanın Azərbaycana yeni səfiri təyin olunub.**

Bu barədə ”Report” Böyük Britaniyanın Xarici İşlər Nazirliyinə istinadən xəbər verir.

Ferqus Oldun hazırkı səfir Ceyms Şarpı 2022-ci ilin avqust ayında əvəz edəcəyi bildirilir.

*Xatırladaq ki, F.Old 2002-ci ildən 2005-ci ilədək Böyük Britaniyanın Banqkokdakı (Tailand) səfirliyində ikinci katib, 2008-2011-ci illərdə Nyu-Dehlidə (Hindistan) iqlim dəyişikliyi və energetika üzrə şöbənin müdiri, daha sonra iqlim dəyişikliyi məsələləri üzrə birinci katib, 2011-2014-cü illərdə isə Moskva şəhərində siyasi müşavir vəzifəsində çalışıb.*

# Prezident Şuşada mesajını verdi

### “İrəvanın qurtuluşu Bakının tələblərinə razılıq verməkdən keçir”

**Prezident İlham Əliyev Şuşa şəhərində Dünya Azərbaycanlılarının V Qurultayında çıxış edərkən növbəti dəfə erməni revanşistlərinə sərt xəbərdarlıq edib. Dövlət başçısı vurğulayıb ki, revanşist qüvvələr bilməlidir ki, bu, Ermənistan üçün bəlkə də son şansdır:**



”Ermənistanda hərdən bir baş qaldıran revanşist qüvvələr bilməlidirlər ki, bu, Ermənistan üçün yeganə çıxış yoludur və bəlkə də son şansdır”. Ölkə rəhbəri bildirib ki, əgər bundan imtina etsələr, onda biz də Ermənistanın ərazi bütövlüyünü tanımayacağıq, bunu rəsmən bəyan edəcəyik: ”İkinci Qarabağ müharibəsinin nəticələrini nəzərə alaraq, Ermənistan tərəfi yaxşı başa düşməlidir ki, bu addım nəyə gətirib çıxaracaq”.

**Dövlət başçısının diqqət çəkdiyi məqamı ”Şərq”ə dəyərləndirən millət vəkili Ceyhun Məmmədov deyib ki, Prezident İlham Əliyev Ermənistan rəhbərliyinə sərt xəbərdarlıq etdi. Deputat xatırladıb ki, Azərbaycan tərəfi Ermənistana sülh prosesi ilə bağlı 5 prinsip təklif edib:** ”İrəvan çalışmalıdır ki, vaxtı yubatmadan prinsipləri qəbul etsin və sülhə öz töhfəsini versin. Əgər bunu etməsələr, rəsmi Bakı Ermənistanın ərazi bütövlüyünü tanımayacaq. O zaman bizim üçün əlavə yol qalmır. Biz bundan sonra daha 30 il gözləyəsi deyilik. Ermənistan öz təxribatlarına son qoymalıdır. Azərbaycanın prinsiplərini və şərtlərini qəbul etməlidir. Əslində bu gün Ermənistanın özündə də vəziyyət kifayət qədər kritikdir. Ona görə də İrəvan hökumətinin yeganə çıxış yolu sülh prosesinə başlamaq və münasibətlərin normallaşmasına öz töhfəsini verməkdir. Revanşist qüvvələr də 44 günlük müharibədən nəticə çıxarmalıdır. Əgər erməni tərəfi təxribatlarını davam etdirirsə, Ermənistan üçün yaxşı olmayacaq. Ən kiçik təxribat cəhdinin qarşısı alınacaq və cavabı çox kəskin olacaq. İrəvanın qurtuluşu masaya oturmaqdan, rəsmi Bakının tələblərinə razılıq verməkdən keçir”.

**İsmayıl Qocayev**





# "Redaksiya siyasəti və peşə etikası qaydaları"

## "Şərq" Medianın təqdim etdiyi layihəni dəyişikliklərlə qəbul edib

İsmayıl Qocayev

**Dünən "Şərq" qəzetinin redaksiyasında Medianın İnkişafı Agentliyinin təqdim etdiyi "Redaksiya siyasəti və peşə etikası qaydaları" müzakirə edilib. Müzakirədə cəmiyyəti informasiya ilə təmin etmək öhdəlikləri daşıyan jurnalistlərin vəzifələri və məsuliyyəti ön plana çəkilib.**



Vurğulanıb ki, Medianın İnkişafı Agentliyi, Audiovizual Şurası, Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinin mütəxəssisləri, jurnalist təşkilatları və digər ekspertlərin prosesə cəlb edilməsi ilə media subyektləri üçün "Redaksiya siyasəti və peşə etikası qaydaları" nümunəsi hazırlayıb təqdim ediblər. Redaksiya rəhbərliyinin qərarı ilə müzakirələr "Redaksiyanın yaradıcılıq prinsipi və siyasəti" istiqamətində aparılıb. Sənəddə göstərilən ümumi prinsiplər, jurnalistin peşə etikası və digər məsələlər müzakirə edilib. "Şərq" qəzetinin baş redaktoru Akif Aşırlı sənəddə əksini tapan məqamları diqqətə çatdırıb. Qeyd olunub ki, Agentliyin tövsiyə etdiyi qaydalar Azərbaycan jurnalistikasına öz töhfələrini verəcək. Diqqətə çatdırılıb ki, hər bir jurnalist redaksiya siyasətinə və peşə etikası qaydalarına əməl etməlidir. O cümlədən, "Şərq Media Qrup" MMC-yə daxil olan "Şərq" qəzeti, "sherg.az" saytı və "Şərq TV"-nin hər zaman obyektivlik, dəqiqlik, qərəzsizlik prinsiplərinə sadiq qaldığı və bundan sonra da qalacağı vurğulanıb. Bəyan edilib ki, dünyanın aparıcı media qurumları redaksiya siyasətini müəyyənləşdirən, etik norma, davranış qaydalarını özündə ehtiva edən kodekslərə malikdir. Bu kodekslər media qurumunun missiyasını, ictimai məqsədlərini, fəaliyyətində söykəndiyi və rəhbər tutduğu dəyərləri, standartları, prinsipləri ictimaiyyət üçün aydınlaşdırır. Redaksiyalara təqdim olunan nümunədə də ümumi prinsiplər, xəbər və şərh, xəbər mənbələri ilə iş, təkzib və düzəlişin necə verilməsi yer alıb. Təqdimatdan sonra əməkdaşlar qaydalarla bağlı fikirlərini bölüşüblər, təkliflərin mütləq nəzərə alınacağını deyiblər. Qaydaların informasiyanın toplanması və qüsursuz çatdırılmasında müsbət rol oynayacağı vurğulanıb.

# İkinci mərhələ başladı

## "Media və kommunikasiya siyasəti medianın gözü ilə" mövzusunda seminarlar davam edir

**Medianın İnkişafı Agentliyi ilə ADA Universitetinin birgə imzaladığı əməkdaşlıq memorandumu çərçivəsində "Media və kommunikasiya siyasəti medianın gözü ilə" mövzusunda seminarlara başlanılıb.**





"Şərq" xəbər verir ki, MEDİA Agentliyi və ADA Universitetinin I?nkişaf və Diplomatiya İnstitutunun birgə təs?kilatc?ılıg?ı ilə keçirilən seminarlar dövlət sektorunda fəaliyyət göstərən qurumların mətbuat xidmətlərinin rəhbərləri, ictimaiyyətlə əlaqələr üzrə məsul əməkdaşları üçün nəzərdə tutulub.

Seminarın ikinci mərhələsinin açılış mərasimində çıxış edən ADA Universitetinin I?nkişaf və Diplomatiya İnstitutunun direktor müavini Aygün Hacıyeva Medianın İnkişafı Agentliyi ilə əməkdaşlıq təcrübəsinin uğurunu xüsusi qeyd edib. Vurğulayıb ki, media və kommunikasiya kimi vacib sahədə islahatların həyata keçirilməsində universitetin təlim və tədqiqat potensialından istifadə edilməsi bu mənada ən qabaqcıl elmi nəzəriyyələrin və təcrübələrin tətbiqi və ADA-nın beynəlxalq əməkdaşlıq şəbəkəsindən istifadəyə imkanlar açır.

ADA Universitetinin İxtisasartırma Proqramlarının rəhbəri Nərgiz İsmayılova medianın inkişafının cəmiyyətimizə müsbət təsirlərindən danışıb.

Medianın İnkişafı Agentliyinin şöbə müdiri Natiq Məmmədli bildirib ki, dövlət orqanları (qurumları) ilə media subyektləri arasında əməkdaşlıq münasibətlərinin möhkəmləndirilməsi istiqamətində tədbirlərin həyata keçirilməsində ADA Universiteti ilə sıx əməkdaşlıq gözəl təşəbbüsdür. O, belə silsilə seminarların keçirilməsinin vacibliyini vurğulayıb.

Qeyd edək ki, silsilə seminarların məqsədi peşəkar əlaqələrin qurulması, kommunikasiya strategiyalarının səmərəli şəkildə işlənilməsi, gu?ndəmin formalas?masına təsiri və gu?ndəmə uyg?un proaktiv və reaktiv fəaliyyətin planlaması, qurumdaxili kommunikasiya və komanda ruhunun artması, ənənəvi və sosial media ilə is?ləyərək daha keyfiyyətli məzmunun yaradılmasına nail olmaqdır. Seminarda yerli və xarici mu?təxəssislər çıxış edir, interaktiv mu?zakirə sessiyaları aparılır.

# "Son təxribat Paşinyanın öz gedişi ola bilər"

## "Ola bilsin o, bununla xaricə - Rusiya, Avropa, Azərbaycan və Türkiyəyə göstərmək istəyir ki, ölkədə yeganə sülh müqaviləsinə imza atacaq şəxs özüdür"



"Bu mənada ki, "onun qədrini bilmək, üzərinə çox getməmək lazımdır" kimi fikirlər formalaşdırmaq istəyə bilər"

**Ötən gün Dövlət Sərhəd Xidmətinin vediyi məlumata görə, aprel ayının 23-də saat 18:00 radələrində Azərbaycan-Ermənistan dövlət sərhədinin Zəngilan rayonu ərazisindən keçən hissəsində Ermənistan Silahlı Qüvvələrinin təxribat-diversiya qrupu tərəfindən Azərbaycan Respublikasının dövlət sərhədini keçməyə cəhd göstərilib.**

DSX tərəfindən görülmüş tədbirlər nəticəsində təxribat-diversiya qrupunun Azərbaycan Respublikasının ərazisinə keçməsinin qarşısı alınıb və diversantlar geri çəkilməyə məcbur ediliblər. Məsələ ilə bağlı DSX bəyan edib ki, belə hal bir daha baş verərsə, tərəfimizdən daha ciddi tədbirlər görüləcək.

**Bakı ilə İrəvan arasında yekun sülhə dair danışıqlar gedərkən Ermənistan tərəfinin təxribata əl atmasını "Şərq"ə şərh edən Sosial Tədqiqatlar Mərkəzinin mətbuat xidmətinin rəhbəri, beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəyli bildirib ki, ermənilərin sərhəd bölgəsində belə bir cəhdə əl atması Ermənistanda hakimiyyətlə ordu arasında vahid mövqeyin olmamasının bariz təzahürüdür:**

"Buna görə də biz hansısa toqquşmaları, fasilə öncəsi təxribatları gözləyirik. Çünki hegemon bir siyasi vəziyyət olmayan Ermənistanda Fransanın, Amerikanın, Rusiyanın, Qərb agenturasının müxtəlif formada maraqları var. Onların heç də hamısı Azərbaycanla sülh müqaviləsinin bağlanmasına tərəfdar deyil. Bu mənada mərkəzi hakimiyyəti müxtəlif formada simulyasiya edə bilərlər".

**Ekspert hesab edir ki, baş verənlər Nikol Paşinyanın öz mövqeyi də ola bilər:**

"Çünki həm Qərb, həm də Rusiya sülh bağlanılmasına yönəlik addımlar atır, amma təbii ki, hər iki mərkəz bunu öz təşəbbüsü ilə icra etmək istəyir. Təsəvvür edin ki, Rusiya sülh müqaviləsinin bağlanması ilə bağlı konkret addımların atılması istiqamətində fəaliyyət göstərir. Amma tutaq ki, eyni zamanda isə Ermənistanda hərbçilərə belə tapşırıq verir.

Belə bir aqument ortaya çıxır. Ona görə də burada Paşinyanın da öz gedişi ola bilər. Ola bilsin o, bununla xaricə - Rusiya, Avropa, Azərbaycan və Türkiyəyə göstərmək istəyir ki, ölkədə yeganə sülh müqaviləsinə imza atacaq şəxs özüdür. Bu mənada ki, "onun qədrini bilmək, üzərinə çox getməmək lazımdır" kimi fikirlər formalaşdırmaq istəyə bilər".

**Çimnaz**

# 28 Mayda əfv gözlənilir

## "Güman edirik, verdiyimiz siyahıdakı şəxslərin çoxu azadlığa buraxılacaq"



**Bu gün Azərbaycan Respublikasının Prezidenti yanında Əfv Məsələləri Komissiyasının iclası keçiriləcək. İclasda komissiyaya daxil olan müraciətlər araşdırılacaq. Komissiyanın iclaslarının 28 May - Müstəqillik Günü münasibəti ilə nəzərdə tutulan əfvlə bağlı keçiriləcəyi bildirilir.**

Bu barədə "Şərq"ə açıqlama verən hüquq müdafiəçisi Novella Cəfəroğlunun sözlərinə görə, əfv sərəncamının imzalanması yəqin ki, baş tutacaq:

"Güman edirik, əfv prosesi gerçəkləşəcək.Verdiyimiz siyahıdakı şəxslərin çoxu azadlığa buraxılacaq. Siyahıdakıların sayı 37-38 nəfərdir".

**Aygün Tahir**

## Nazirlərin vasitəçisiz əlaqə qurması önəmli nüansdır

**Azərbaycan Xarici işlər naziri Ceyhun Bayramovla Ermənistan xarici işlər naziri Ararat Mirzoyan arasında telefon danışığı baş tutub. Nazirlər, iki dövlətin liderləri səviyyəsində əldə olunmuş razılaşmaların davamı olaraq fikir mübadiləsi aparıblar.**




# Ermənistana tam güvənmək olmaz

## Ona görə də sülhə məcburetmə siyasətini davam etdirməliyik

Tərəflər, Birgə Sərhəd Komissiyasının iştirakçılarının parametrləri barədə razılığa gəliblər. Birgə Sərhəd Komissiyasının, habelə sülh müqaviləsinin işlənib hazırlanması ilə bağlı işçi qrupunun görüşlərinin yaxın zamanlarda təşkil olunmasına dair razılıq əldə olunub. Həmçinin, nazirlər humanitar sahədə addımların davam etdirilməsi ilə bağlı fikir mübadiləsi aparıblar. Xatırladaq ki, bu, XİN rəhbərlərinin ikinci birbaşa əlaqəsidir. İlk telefon danışığı aprelin 11-də reallaşıb. Ekspertlərin fikrincə, yekun sülh sazişinin imzalanması, işçi qrupların əlverişli fəaliyyəti və müəyyən razılıqların əldə olunması üçün birbaşa təmasların olması vacibdir. Çünki əksər hallarda vasitəçilərin müdaxiləsi prosesin qeyri-müəyyən vaxtadək uzanmasına, nəticələrin yubanmasına gətirib çıxarır.

**Millət vəkili, siyasi elmlər doktoru, professor Elşad Mirbəşiroğlu "Şərq"ə açıqlamasında deyib ki, keçmiş münaqişə subyektləri arasında birbaşa kommunikasiyanın olması çox müsbət haldır. Deputatın sözlərinə görə, vasitəçilər özləri də hansısa münaqişənin tənzimlənməsi prosesinə cəlb olunanda onlar ilkin olaraq tərəflər arasında kommunikasiya qurmağa çalışırlar:** "Azərbaycan və Ermənistan arasında birbaşa əlaqələrin qurulması, müzakirələrin aparılması sonrakı addımların atılması baxımından zəruridir. Azərbaycan-Ermənistan münasibətlərinin postmünaqişə mərhələsində normallaşdırılması üçün XİN başçıları səviyyəsində birbaşa təmaslar daha dinamik addımların atılmasına səbəb ola bilər. Prezident İlham Əliyev Şuşada Dünya Azərbaycanlılarının V Qurultayında çıxış edərkən vurğuladı ki, "bizim çox vaxtımız yoxdur". Yəni rəsmi Bakı məsələlərin uzanmasını istəmir. Tərəflər arasında birbaşa əlaqə qısa zaman kəsiyində nəticənin əldə olunmasına şərait yaradacaq. Ölkələr öz mövqelərini rahat formada uzlaşdırmaq imkanı əldə edəcək, koordinasiya etmək imkanlarına sahib olacaqlar. Xatırladım ki, Brüsseldə sonuncu görüş zamanı Azərbaycan və Ermənistan sərhədlərinin müəyyənləşməsi üçün komissiyanın yaradılması razılaşdırılıb. Bu razılaşma da birbaşa təmasları aktuallaşdırır".

Parlament üzvü vurğulayıb ki, Ermənistan tərəfi əksər hallarda öhdəliyinə əməl etmir, məsuliyyətdən qaçmağa çalışır: "İrəvan hökumətinin sərgilədiyi mövqe ilə praktiki davranışları arasında ciddi ziddiyyət müşahidə olunur. Aprelin 23-də sərhədimizdə baş verən erməni təxribatı da ona dəlalət edir ki, Ermənistana tam güvənmək olmaz. Ona görə də İrəvanı sülhə məcburetmə siyasətini davam etdirməliyik. XİN rəhbərlərinin birbaşa təmasları bu mənada təsirli vasitə rolunu oynaya bilər. Rəsmi Bakı sülhlə bağlı öz mövqeyini ortaya qoyur, digər yandan isə erməniləri təxribatdan çəkindirmək üçün hərbi gücümüzü yenidən xatırladır. Siyasi dialoq, müəyyən nəticələrə nail olmaq və təxribatlara son vermək baxımından xarici işlər nazirlərinin vasitəçisiz əlaqə qurması önəmli nüansdır".

**Politoloq Tofiq Abbasov isə gərginliyin hələ də davam etdiyinə diqqət çəkib. O bildirib ki, belə məsələlər ortaq şəkildə təşkil olunduqda tərəflərin bir-birindən xəbərdar olması gərəkdir:**

"Əsas məqamları, mübahisəli məsələləri birgə araşdırıb qənaətə gəlmək lazımdır. Bu baxımdan bəllidir ki, münasibətlərdə olan gərginlik bitməyib. Delimitasiya, demarkasiya məsələləri də çox həssas məsələlərdir. Hər kəs bir metrin belə "müharibə"sini aparır. Hamı çalışır ki, öz tərəfi üçün daha çox qazanc əldə etsin. Amma hər halda start məqamı kimi Sovet dövründən qalmış inzibati sərhədlərin xəritələrindən istifadə olunur. Onlar həm Moskvada, həm də bizim tərəflərdə var. Düzdür, buna görə ermənilər yenə cığallıq etməyə başladılar ki, guya, onların heç bir sənədi yoxdur, guya, həmin xəritələrdən xəbərsizdirlər. Amma bu belə deyil. Hətta vəziyyət o yerə gəlib çatdı ki, Moskvadan da xəbər gəldi ki, arxivlərdə o sənədlərin hər biri var, lazım olduğu təqdirdə onlar həm Azərbaycana, həm də İrəvana təqdim oluna bilər. Odur ki, ermənilərin bəhanələrini biz ardarda "tərki-silah" edirik, neytrallaşdırırıq".

**Politoloq vurğulayıb ki, ermənilərin uzun illərdir tutduğu mövqe heç bir işə yaramır:** "Bu artıq nazirlərin ikinci telefon bağlantısıdır. Artıq əməli işlərə keçid vaxtıdır. Çünki ermənilər çox süründürməçiliklə, sabotajla məşğul olurlar. Lakin daha bu gedişlər və metodika öz bəhrəsini vermir. Əgər verirsə də, bu yalnız onlar üçün mənfi nəticələrdən ibarətdir. Ona görə Azərbaycan tərəfi bu proseslərin hər birinə hazırdır. Bu məsələ artıq Prezident İlham Əliyevin Avropa İttifaqının prezidenti Şarl Mişel ilə telefon danışığı zamanı qabardılıb. Dövlət başçısı bildirib ki, Azərbaycan tərəfindən heç bir maneə yoxdur".

**İsmayıl Qocayev, Çimnaz**



# Yenə Kreml izi...

## Sərhəddə təxribatların davam edəcəyi gözlənilləndir

İsmayıl Qocayev

**Ermənistan Silahlı Qüvvələri Azərbaycan ərazisində növbəti təxribata cəhd edib. Aprelin 23-də ermənilərin təxribat-diversiya qrupu Azərbaycan-Ermənistan dövlət sərhədinin Zəngilan rayonu ərazisində dövlət sərhədini keçmək istəyərkən zərərsizləşdirilib.**

Hadisə ilə bağlı Ermənistanın təxribatı ilə bağlı Rusiya Federasiyasının Federal Sərhəd Xidmətinin Ermənistandakı sərhəd idarəsinin nümayəndələri də məlumatlandırılıb. Dövlət Sərhəd Xidməti bəyan edib ki, təkrar belə bir hadisə baş verərsə, daha ciddi tədbirlər görüləcək. Xatırladaq ki, aprelin 12-də Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin təşəbbüsü ilə Brüsseldə Azərbaycan-Ermənistan rəhbərliyi arasında keçirilən görüşdə sülh sazişinin imzalanması ilə bağlı rəsmi Bakının irəli sürdüyü şərtlər əsasında müsbət addım atıldı. Aprelin 30-dək Bakı ilə İrəvan arasında Birgə Sərhəd Komissiyasının üzvləri təyin edilməsi təklif olundu. İndiki halda sərhəddə təxribat törədilməsi birmənalı olaraq birgə komissiyaların yaradılması və işlərin aparılmasına qarşı yönəlmiş təxribatdır. Şübəsiz, təxribata görə, bütün məsuliyyət Ermənistanın üzərinə düşür. Görünür, Paşinyan Ermənistan ictimaiyyətində xal qazanmaq üçün manipulyasiya edir və adəti üzrə verdyi vədləri yerinə yetirməmək üçün əlindən gələni edir. Sərhəd təxribatı Ermənistanın hələ də baş verən proseslərdən doğru-düzgün nəticə çıxarmadığını göstərir. Əgər Ermənistanın siyasi rəhbərliyi ilə hərbi rəhbərliyin arasında problem mövcud olsaydı, o zaman Paşinyan onlardan heç olmasa birini vəzifədən uzaqlaşdırar, onlarla razı olmadığını nümayiş etdirərdi. İndiki halda proseslərin Paşinyanın iradəsindən kənarda baş verdiyini düşünmək inandırıcı deyil. Reallıq odur ki, Ermənistan tərəfi dəhlizin açılmasında, sərhədlərin müəyyənləşməsində, normallaşma prosesində indiyədək heç bir təşəbbüs irəli sürməyib. Rəsmi Bakının təkliflərindən isə mümkün qədər boyun qaçırıb. Ona görə də Azərbaycan sərhəd təxribatlarına təmkin göstərməməli, təxribat qruplarının geri çəkilməsinə yox, onların məhv edilməsinə nail olmalıdır.

**Ermənistanın növbəti təxribatı ilə bağlı "Şərq"ə danışan siyasi şərhçi Asif Nərimanlı bildirib ki, Paşinyanın Moskva səfərindən sonra belə təxribat gözlənilən idi. Analitik xatırladıb ki, Brüssel və Paşinyan-Putin görüşündə sərhədin delimitasiyası ilə bağlı eyni mövqe sərgiləndi:** "Qərb masasında birgə komissiyanın aprel ayının sonuna kimi yaradılması razılaşdırıldı. Rusiyada prosesin tezləşdirilməsi məsələsi ön planda idi. Qərb və Rusiyanın "vasitəçilik" üzərində yarışı müşahidə olunsa da, hər iki tərəfdən çıxacaq nəticə İrəvanın istəyinə uyğun deyil. İstisna deyil ki, sərhədin delimitasiyası Rusiyada mövcud olan xəritələr əsasında və Avropa İttifaqının dəstəyi ilə həyata keçiriləcək. İki məqam bu ehtimalı gücləndirir. Birincisi, Brüssel razılaşmasında 26 noyabr Soçi bəyanatına - Rusiyanın vasitəçiliyinə istinad edilir. İkincisi, Şarl Mişelin Putinə zənginə dair məlumatda tərəflərin üçtərəfli bəyanatların icrasını müzakirə etdiyi qeyd olunur. Mişel və Putinin sərhəd məsələsinin birgə həllinə razılaşdığı mümkündür. Ardınca Mişelin liderlərə zəng etməsi, Bakının sülh sazişi və sərhədlə bağlı komissiyanın tərkibini müəyyənləşdirməsi də ortaq fikrin olduğu versiyasını önə çıxarır".

Ekspert vurğulayıb ki, rəsmi İrəvan isə sərhədlə bağlı "güzgü prinsipi"nin tətbiq edilməsini və SSRİ dağılanda mövcud olan xətlər üzrə müəyyənləşməsini istəyir: "Bu, Azərbaycan Ordusunun müharibədən sonra çıxdığı sərhəd xəttindən geri çəkilməsi və SSRİ dövründə otlaq-əkin sahəsi ilə ermənilərə verilən ərazilərin, o cümlədən, anklavların Ermənistanda qalması deməkdir. Bakının bunu qəbul etməyəcəyi məlumdur. Bu həm də sərhədlə bağlı ilkin razılaşmalara uyğun deyil. Brüssel və Moskvada prosesin tezləşdirilməsi istəyi də Ermənistanın istəyinin masada olmadığı deməkdir. Brüssel və Moskvadan eyni cavabla İrəvana qayıdan Paşinyan diversiya qrupunu sərhədə göndərməklə razılaşmları sıfırlamaq, ən azı istəklərinin nəzərə alınması vəziyyətini yaratmaq istəyir".

> "Şəraiti Rusiya sərhədçiləri yaradıb. Bununla Moskva Brüssel razılaşmasını pozmağa, öz vasitəçiliyinin önə çıxmasına çalışır"

**A.Nərimanlı qeyd edib ki, burada diqqətçəkən əsas məqamalardan biri erməni diversiya qrupunun keçməyə çalışdığı sərhəd xəttinə Rusiya sərhədçilərinin nəzarət etməsidir:** "Bu, o versiyanı önə çıxarır ki, təxribata şəraiti Rusiya sərhədçiləri yaradıb. Bununla Moskva Brüssel razılaşmasını pozmağa, öz vasitəçiliyinin önə çıxmasına çalışır. Hərçənd, Brüsseldə sərhəd razılaşmasının Soçi bəyanatına əsaslanması, Mişellə Putinin müzakirələri bu ehtimala dair suallar yaradır. O da istisna deyil ki, Ermənistanın Rusiya sərhədçilərinin nəzarət etdiyi xətdən diversiya cəhdi Bakı və Moskvanı üz-üzə qoymaq, bununla istəklərinə Rusiyadan dəstək əldə etmək, yaxud ən azı iki masadan birində vəziyyəti dəyişdirmək gedişidir. Diversiya cəhdinin Paşinyanın ən çox gündəmə gətirdiyi Kəlbəcər istiqamətində yox, məhz Zəngilan istiqamətində edilməsi də diqqəti bu amilə yönəldir. Sərhəddə təxribatların davam edəcəyi gözlənilləndir".

# Ermənistan Minsk qrupunun "dirilməsini" istəyir

## Fuad Abbasov: "Biz yaxşı bilirik ki, erməni tərəfi özbaşına Rusiyanın razılığını almadan addım atan deyil"



**ATƏT-in Minsk qrupunun həmsədrləri kimi Rusiya, ABŞ və Fransanın fəaliyyətsizliyi göz önündə idi. Hər üç həmsədr ölkə 30 il ərzində Qarabağ münaqişəsinin həllində bir addım belə irəliləyişə təkan vermədi.**

Ona görə də Azərbaycan Ordusu öz gücü naminə torpaqlarımızı işğaldan azad etdi. Bununla da Minsk qrupunun fəaliyyətinə ehtiyac qalmadı. Artıq rəsmi Bakı Minsk qrupunun fəaliyyətini (oxu:fəaliyyətsizliyini) dəstəkləmir, bu təşkilatın ləğvinin tərəfdarıdır və məlum qurumu ləğv olunmuş hesab edir.

Artıq həmin qrupda təmsil olunan bəzi ölkələr də onun fəaliyyətinə ehtiyac duyulmadığını bəyan edirlər. Beləliklə, Minsk qrupu de-fakto qrupu ləğv edilsə də, Rusiya Qarabağdakı vəziyyətdən əl çəkmək istəmir. Qrupun əvəzinə, Rusiya XİN-də nümayəndəlik yaradaraq prosesdə aktiv iştirak etməyə çalışır.

Yeri gəlmişkən, bir müddət əvvəl Minsk qrupunun rusiyalı həmsədri İqor Xovayev öz işini yeni vəzifədə, yəni Rusiyanın xarici işlər nazirinin Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşmasına yardım üzrə xüsusi nümayəndəsi kimi davam etdirməyə başlayıb.

Elə dünən Azərbaycanın Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Xarici İşlər Nazirliyinin Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması üzrə xüsusi nümayəndəsi İqor Xovayevlə görüşüb.

Toplantıda Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması, sərhədlərin delimitasiyası və demarkasiyası məsələləri müzakirə olunub. Azərbaycan tərəfinin təqdim etdiyi 5 prinsip əsasında iki ölkə arasında sülh müqaviləsinin hazırlanmasına dair mövzuya toxunulub.

İlham Əliyev sülh müqaviləsinin hazırlanması üzrə Azərbaycan nümayəndə heyətinin və iki ölkə arasında sərhədlərin delimitasiyası və demarkasiyası üzrə Azərbaycan milli komissiyasının tərkibinin müəyyənləşdiyini vurğulayıb. Azərbaycanın Ermənistanla danışıqlara hazır olduğunu diqqətə çatdırıb.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər regional məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

**Rusiyanın regionda hegemonluq siyasəti yürütməsindən "Şərq"ə danışan jurnalist, siyasi şərhçi Fuad Abbasovun sözlərinə görə, Minsk qrupunun yaradılması ölkəmiz üçün böyük bir səhv idi:** "1990-cı illərdə Qarabağ probleminin həllini Avropa, Amerika və Rusiyaya həvalə etdik. "Problemi həllinə qovuşdura bilmirik, siz yardım göstərin" formasında acizanə ricamız oldu. Bu gün reallıq dəyişib. Azərbaycan özü problemin həllini gerçəkləşdirdi. Lakin reallığı dəyişmək istəyən qüvvələr var.

Minsk qrupunun aktivləşməsi qələbənin ardınca gündəmə gəldi. Minsk qrupunun üzvləri Prezident İlham Əliyevlə görüşdü. İ.Əliyev açıq şəkildə onları dəvət etmədiyini söylədi. Bununla başa düşdük ki, Azərbaycan Minsk qrupunu tanımır.

Son günlərdə Rusiya Ukrayna cəbhəsində həm siyasi, həm hərbi məğlubiyyətə uğrayır. Bu səbəbdən heç olmasa cənub sərhədlərinin "xilası üçün çalışır".

Bütün Avropa Rusiyadan üz döndərdiyi məqamda, rəsmi Moskva Minsk qrupunda reanimasiya keçirib, problemin həllində fəal çalışmağa can atır, görüntü yaradır. Sanki avropalı bürokratların istəyi ilə Minsk qrupunu aktivləşdirmək cəhdləri nəzərə çarpır. Ermənistan tərəfinin xarici siyasəti ilə əlaqələndirmələri də mümkündür.

Sanki Ermənistan Minsk qrupunun "dirilməsini" istəyir. Biz yaxşı bilirik ki, erməni tərəfi özbaşına Rusiyanın razılığını almadan addım atan deyil.

Avropa standartlarından yararlanmaq istəyən Rusiya, öz mövqeyini Cənubi Qafqazda möhkəmləndirməyə çalışır. Bizim də xarici siyasətimiz bu siyasətə ədalətli cavab verməlidir".

**Aygün Tahir**



# Prosesə güvən yoxdur

## Kremlin "canfəşanlığı" alınmır

**Rusiya Xarici İşlər Nazirliyinin departament rəhbəri Denis Qonçar bildirib ki, Cənubi Qafqaza dair "3+3" əməkdaşlıq platformasının ikinci iclasına hazırlıq işləri görülür. Onun sözlərinə görə, iclasın yeri və tarixi bildiriləcək:**

"Əminəm ki, "3+3"ün açıqlanmış gündəliyi bütün iştirakçı ölkələrin razılığı ilə qapıların açıq qaldığı Gürcüstanın da mənafeyinə tam uyğundur". Cənubi Qafqaz ölkələri və qonşuları arasında qarşılıqlı fəaliyyəti gücləndirmək üçün "3+3" formatından hərtərəfli istifadə olunmasının düzgün olacağı qənaətində olduqlarını söyləyən Rusiya XİN rəsmisinin fikrincə, bu əməkdaşlıq formatı çərçivəsində birgə müzakirələr zamanı mövcud ziddiyyətlər kəskinləşmir. Əksinə, qarşılıqlı etimadın artırılması üçün addımlar atılır. Qonçar əməkdaşlığın başlıca istiqamətləri kimi ticarət, enerji, sənaye, yeni texnologiyalar, infrastruktur kimi sahələrdə qarşılıqlı faydalı layihələrin icrasını vurğulayıb. Xatırladaq ki, "3+3" regional məşvərət platformasının birinci iclası Azərbaycan, Ermənistan, Rusiya, Türkiyə xarici işlər nazirləri müavinlərinin, İran XİN Baş direktorunun sədrliyi ilə 2021-ci il dekabr ayında Moskva şəhərində keçirilib. Gürcüstan Xarici İşlər Nazirliyi isə bu platformada iştirak etməyəcəyini bildirmişdi.

**Rusiyanın "altılıq" formatını gündəmə gətirməsini "Şərq"ə dəyərləndirən Vəhdət Partiyasının sədr müavini, politoloq Vasif Əfəndiyev deyib ki, Türkiyə və Rusiyanın ortaq məxrəcə gəldiyi format "3+3" olsa da, indiyə qədər irəliləyiş olmayıb. Siyasi şərhçi vurğulayıb ki, təklif irəli sürüldüyü ilk vaxtlarda Gürcüstan regional əməkdaşlığın bu formatına isti yanaşmışdı. Lakin bir müddət sonra Tbilisinin demonstrativ şəkildə imtinası baş verdi:** "Gürcüstan öz davranışına görə, konkret səbəb göstərmədi. Gürcüstan hakimiyyəti qismən rusyönlü olsa da, görünür, Moskva və Ankaraya tam güvənmir.

> "3+3" formatında indiyə qədər irəliləyiş olmayıb

Gürcüstan Qafqaz ölkələri arasında daha çox Rusiya işğalına məruz qalan ölkədir. Düzdür, xarici və daxili siyasətində Rusiyanın maraqlarının xeyli hissəsini təmin edir. Lakin Gürcüstanın Avropa İttifaqına və NATO-ya inteqrasiya istəyi Rusiyaya bağlılıqdan daha çoxdur. Ötən ilin ortalarında İrakli Qaribaşvilinin qəfil İrəvana səfəri Baş nazir Nikol Paşinyanı da bu formatdan çəkindirmək üçün idi. O zaman Ermənistan və Gürcüstan "3+3" formatına əlavə olaraq Avropa İttifaqı və ABŞ-ın qoşulmasını dilə gətirmişdilər".

V.Əfəndiyev hesab edir ki, bütün dünyanın Rusiyanı aqressiyasına görə təklədiyi bir zamanda Moskvanın regionda öz əli ilə yaratdığı problemin "həllini" gündəmə gətirməsi xoş niyyətdən qaynaqlanmır: "Rusiyanın "canfəşanlığı" Avropa İttifaqının aktivliyi və Azərbaycan-Ermənistan prezidentlərinin Brüssel görüşlərinin nəticələrindən öz maraqları çərçivəsində narahat olmasından irəli gəlir".

**İsmayıl Qocayev**



# Hədəf bəllidir

## İnformasiya sisteminin qorunması prioritet məsələdir

Şəymən

**Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyası (AKTA) yaradılıb.**

**Təşkilat kibertəhlükəsizlik sahəsində elmi-texniki nailiyyətlərin tətbiqinə dəstək verməsi ilə yanaşı, bu istiqamətdə maarifləndirmə və məlumatlandırmanın həyata keçirilməsinə dəstək verəcək.**

Həmçinin Assosiasiya milli maraqların təbliğat və dezinformasiya fəaliyyətinə qarşı mübarizədə müvafiq təkliflərin verilməsi və bu istiqamətdə görülən işlərin əlaqələndirilməsini təmin edəcək.

Qurumun yaradılmasında əsas təşəbbüskar, ölkədə kibertəhlükəsizliyə cavabdeh Dövlət Təhlükəsizlik Xidmətidir.



Ölkənin milli maraqlarının qorunmasında Kibertəhlükəsizlik önəmli yerlərdən birini tutur. Bütün dünyada olduğu kimi ölkəmizdə də kibercinayətkarlığa qarşı mübarizə tədbirlərinin genişləndirilməsi təqdirəlayiq haldır. Real həyatda təhlükəsizliyimizin önəmli olması kimi virtual aləmdə də bu, ən önəmli məsələlərdən biridir.

Assosiasiyanın yaradılmasını müsbət dəyərləndirən ekspertlər hesab edirlər ki, qurum kiber təhdidlərin qarşısının alınmasında, ölkənin kiber mühitinin dayanıqlığında və inkişafında mühüm rol oynayacaq. Yeni assosiasiya kibertəhlükəsizliyin gücləndirilməsi üçün səmərəli bir platforma olacaq.

**Azərbaycanda artıq bir çox sahələrin internetə inteqrasiya olunduğunu vurğulayan Azərbaycan İnternet Forumunun prezidenti, İKT mütəxəssisi Osman Gündüzün "Şərq"ə açıqlamasına görə, müasir dünyada informasiya sistemlərinin qorunması mühüm əhəmiyyət kəsb edir:** "Azərbaycan kibercinayətkarlıqla bağlı konvensiyalara da qoşulub. Kiberhücumlarla bağlı problemlər bütün dünyada yaşanır. Müxtəlif ölkələrdə dövlət qurumlarının informasiya sistemi dağıdılaraq məlumatlar oğurlanır. Son dövrlər ölkəmizdə də belə neqativ halların qarşısını almaq üçün mübarizə tədbirləri gücləndirilib. Azərbaycanda yeni yaradılan assosiasiya kibercinayətkarlığa qarşı mübarizə imkanlarını daha da genişləndirəcək. Assosiasiya bu sahədə yeni təkliflərin hazırlanıb hökumətə təqdim edilməsində mühüm rol oynayacaq. Yeni qurum ən son texnoloji yenilikləri tətbiq edəcək".

*O. Gündüzün sözlərinə görə, əvvəllər DTX əsasən kibercinayətkarlıqla mübarizə istiqamətində fəaliyyətə üstünlük verirdi. İndi görünür ki, DTX kiber mühitdəki fəaliyyətini genişləndirəcək:*

"Yeni yalnız kibercinayətkarlıqla deyil, kritik infrastruktura daxil olan dövlət və özəl sektorun kibertəhlükəsizlik məsələlərinə də nəzarət edəcək. Əvvəllər dövlət sektorunda kibertəhlükəsizlik və informasiya təhlükəsizliyi ilə bağlı məsələlər daha çox Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin kurasiyasında olub. Bu qurum həm də Prezident fərmanı ilə yaradılan İnformasiya Təhlükəsizliyi üzrə Koordinasiya Komissiyasının fəaliyyətini də istiqamətləndirir. Deməli, bundan sonra dövlət tərəfindən kibertəhlükəsizliklə bağlı əsas resurslar DTX-ya yönəldiləcək və hər iki sektorda kibertəhlükəsizliklə bağlı məsələlərdə DTX-nin rolu xeyli artacaq. Deməli, artan və artması proqnozlaşdırılan kiber təhdidlərlə bağlı, kibertəhlükəsizliklə bağlı məsələ, ən yüksək səviyyədə, dövlət başçısı səviyyəsində nəzarətə götürülüb və bu sahə ilə bağlı fəaliyyətin kurasiyası DTX-yə tapşırılıb. Hökumət kibertəhlükəsizlik sahəsini dövlət təhlükəsizliyinin əsas prioriteti olaraq qəbul edir və qarşıdakı illərdə bu sektorda ciddi problemlərin ola biləcəyini proqnozlaşdırıb".

> Azərbaycanda yeni yaradılan assosiasiya kibercinayətkarlığa qarşı mübarizə imkanlarını daha da genişləndirəcək

**Ekspert hesab edir ki, DTX ölkənin kibertəhlükəsizlik sahəsində çalışanların bir arada toplanmasında, onların resurslarından dövlətin təhlükəsizliyinin möhkəmləndirilməsi üçün istifadə edilməsində maraqlıdır və bu məqsədlə də AKTA qurumunun yaradılması təşəbbüsünü irəli sürüb:** "Əgər kritik infrastrukturun kibertəhlükəsizliyi də DTX-də olacaqsa, qurumun peşəkar kadrlara ciddi ehtiyacı olacaq. Güman etmək olar ki, bu məqsədlə qurum AKTA-nın resurslarından istifadəni və peşəkar kadrlar yetişdirməyi nəzərdə tutur.

Bu sahədə bizdə problemlər çoxdur. Qanunvericilik təkmilləşməlidir. Kritik resursların ciddi İT auditi keçirilməlidir. İstifadə olunan avadanlıqlara və proqram təminatlarına qarşı vahid standartlar olmalıdır. Milli resursların və milli kadrların hazırlanmasına üstünlük verilməlidir. Bu baxımdan peşəkarlardan ibarət Assosiasiyanın formalaşdırılması təşəbbüsü təqdirəlayiqdir. Assosiasiyadan gözləntilərimiz çoxdur. Biznesin öz biznes maraqları da var. AKTA isə ictimai qurumdur, necə deyərlər, QHT-dir. Təcrübə isə göstərir ki, ictimai sektorda çalışmaq, vuruşmaq böyük enerji və prinsipiallıq, böyük də resurslar tələb edir.

İnanıram ki, AKTA ölkəmizin kiber ekosisteminin inkişafı və dayanıqlığı istiqamətində ciddi töhfələr verəcək".

# Üçüncü Dünya müharibəsi riskini söyləmək tezdir

## Türkiyə hələki tərəfsizdir, balanslı siyasət yürüdür, Çin də kəskin mövqe ortaya qoymayıb



**Rusiya-Ukrayna gərginliyi fonunda ABŞ-ın Ukraynaya dəstəyi artır. Belə ki, ABŞ rəsmi nümayəndələri dəfələrlə Ukraynanı yüksək səviyyədə dəstəklədiklərini diqqətə çatdırıblar. ABŞ Dövlət Departamentinin sözçüsü Ned Praysın sözlərinə görə, ABŞ Müdafiə Nazirliyi ukraynalı hərbçilər üçün hərbi təlimləri genişləndirəcək. Ümumilikdə, Vaşinqton 713 milyon dollardan çox vəsait ayırmağı planlaşdırır.**

Bu, Ukrayna, Mərkəzi və Şərqi Avropanın və Balkanların digər 15 ölkəsi üçün nəzərdə tutulub. Bunun 322 milyon dollardan çoxu Ukraynaya ayrılıb. ABŞ-ın dövlət katibi Entoni Blinken və Müdafiə naziri Lloyd Ostin Ukraynanın paytaxtı Kiyevdə səfərdədir. Ukrayna Prezident Ofisi rəhbərinin müşaviri Oleksiy Arestoviç "Feygin Live"a bu barədə məlumat verib. O bildirib ki, hazırda onlar Ukrayna Prezidenti Volodimir Zelenski ilə görüş keçirirlər. O.Arestoviçin sözlərinə görə, Ukrayna Silahlı Qüvvələri üçün yeni silah növlərinin tədarükü ilə bağlı razılıq əldə oluna bilər:

"Buna hazır olmasaydılar, gəlməzdilər".

Məlumat üçün bildirək ki, Rusiya ABŞ-a Ukraynaya silah tədarükünü dayandırması ilə bağlı nota göndərib. Bu barədə Rusiyanın ABŞ-dakı səfiri Anatoli Antonov "Rossia-24" telekanalına müsahibəsində bildirib."800 milyon dollar, bu, Vaşinqtondan Kiyevə tədarük olunacaq silahların dəyəridir. Bu, böyük rəqəmdir, bu, diplomatik həllin tapılmasına, vəziyyətin həllinə töhfə vermir. Biz nota göndərmişikmi? Bəli, biz ABŞ-ın Ukraynaya silah tədarükünün qəbuledilməzliyini vurğuladıq, biz bu təcrübənin dayandırılmasını tələb etdik", - səfir qeyd edib.

Həqiqətən, dünyada baş verən siyasi kataklizmlər, müharibələr, əzələ nümayişləri, nüvə dövlətlərinin sayının artması vəziyyətin olduqca təhlükəli hal aldığını ortaya qoyur.

Üçüncü Dünya müharibəsinin baş verməsi realdırmı?

**Prosesləri "Şərq"ə şərh edən hərbi-siyasi ekspert Həşim Səhrablının fikrincə, Rusiya xəta törədib özünü çətinə salıb. Amma Ukrayna da qurbana çevrildi:**

"Hazırkı proseslər də oyunun davamını göstərir. Qərb anlayır ki, Rusiyanı kənara sıxıb zərərsizləşdirməsələr, bir müddət sonra bölgə dövlətləri üçün daha təhlükəli hala gələcək. Dünyanın güclü ölkələri - Qərbə, Amerikaya ciddi təhdid, problemə dönəcək.

Lakin Üçüncü Dünya müharibəsinin gerçəkləşməsi müəmmalıdır. Qərbin təyziqlərinə qarşı tab gətirə biləcəyi, Moskvada iqtidarın nə qədər qalacağı barədə məlumatsızıq.

Sonrakı durum hazırkı proseslərin müharibəylə, yoxsa Rusiyanın məğlubiyyətini etiraf edib geri çəkilməsilə nəticələnəcəyini göstərəcək.

Vəziyyət kritikləşdikcə, müharibəni fərqli fazada görə bilərik. Üçüncü Dünya müharibəsi riskini söyləmək çox tezdir. Çin və Şərqdəki digər böyük dövlətlərin mövqeyi önəmlidir. Qərb, Amerika Rusiyaya qarşı birləşib.

Türkiyə də hələki tərəfsizdir, balanslı siyasət yürüdür. Çin də kəskin mövqe ortaya qoymayıb. Türkiyə, Hindistan, Çin, Pakistan İran qəti mövqe ilə müharibəyə daxil olmadıqca, dünya müharibəsindən danışa bilmərik".

**Aygün Tahir**

# Ukrayna ABŞ-dan zəmanət istəyir

## Təmas boyunca Amerika, Böyük Britaniya, Almaniya və Türkiyə ordusunun yerləşdirilməsi gündəmə gəlir

**Ukrayna Prezidenti V.Zelenski Amerika Birləşmiş Ştatlarını gələcəkdə Ukraynanın təhlükəsizliyinin qarantı olan ölkələrin lideri kimi gördüyünü deyib.**



Ukrayna lideri bu barədə ABŞ dövlət katibi Entoni Blinken və Müdafiə naziri Lloyd Ostinlə görüşündə bildirib. Tərəflər sülh prosesi və müharibə əleyhinə koalisiyanın gücləndirilməsi perspektivlərini nəzərdən keçiriblər.

Ukrayna rəhbəri Amerika nümayəndə heyəti ilə müdafiə yardımı, Rusiya əleyhinə sanksiya siyasətinin gücləndirilməsi və təhlükəsizliyə zəmanət məsələlərini müzakirə edib. Zelenski qeyd edib ki, ABŞ tərəfindən göstərilən ümumilikdə 3,4 milyard dollar müdafiə dəstəyi Ukraynanın müdafiə qabiliyyətinin möhkəmləndirilməsinə ayrılan ən iri vəsaitdir. Dövlət başçısı vurğulayıb ki, bu yardım Ukraynanın müdafiə qabiliyyətinin keyfiyyətcə yeni səviyyəyə çıxmasına artıq öz köməyini göstərir. Xatırladaq ki, Türkiyənin də Ukraynaya qarantor ölkə olması məsələsi gündəmə gəlmişdi. Türkiyənin Xarici işlər naziri Mövlud Çavuşoğlu isə bəyan etmişdi ki, Kiyevin NATO Nizamnaməsinin beşinci bəndini əsas götürərək Ukrayna üçün qarantor ölkə tələb etməsi doğru yanaşma deyil. Nazirin sözlərinə görə, Ankara hökuməti bu cür tələbi yanlış sayır: "Biz Ukraynanın qarantına çevrilməyin əleyhinə deyilik. Amma Ukrayna tərəfi NATO Nizamnaməsinin beşinci bəndindən nümunə götürərək təminat tələb edir. Həm ABŞ, həm də Böyük Britaniya, o cümlədən biz məhz bu məqama qarşıyıq. Anlamaq lazımdır ki, bu zəmanət nədən ibarətdir, tələblər nələr olacaq? Bütün qarant ölkələrin əlavə risklərlə bağlı şərtləri qəbul etməsi lazımdır".

**Zelenskinin qarantiya tələbi ilə bağlı "Şərq"ə danışan beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəyli bildirib ki, qarantor ölkənin vəzifəsi sülhə nail olmaq məqsədi ilə Rusiya üzərində hüquqi məsuliyyəti təmin etmək və davamlılığı həyata keçirməkdir. Analitik vurğulayıb ki, burada ən vacib məqam təhlükəsizlik faktoru ilə bağlıdır:** "Əgər sülh olarsa, Donbass vilayəti rusların nəzarətində qalarsa, eyni zamanda Ukrayna bitərəfliyini elan edərək NATO-ya inteqrasiya etməməyə söz verərsə, öz gələcəyini təmin edə bilər. Bir daha rus təhdidi ilə qarşı-qarşıya qalmaz. Reallıq isə odur ki, Rusiyanın Ukraynaya yönəlik hərbi kampaniyaları zaman-zaman təkrarlanacaq. O səbəbdən real olaraq müəyyən edilmiş təmas xətti boyunca qarantor ölkələrin qoşunlarının yerləşdirilməsi nəzərdən keçirilə bilər. Rusiya-Ukrayna təmas xətti boyunca ABŞ, Böyük Britaniya, Almaniya və Türkiyə ordusunun yerləşdirilməsi gündəmə gələr. Qarantor ölkə kimi Türkiyənin də adı hallanır. Ankara hələlik bununla razılaşmır və NATO üzvü olaraq proseslərdə iştirak etmək istəmir. Əslində bu məsələdə Türkiyənin hərbi alyansın üzvü olması həlledici arqument deyil. Ankara hökuməti Türkiyənin Rusiya ilə hərbi toqquşma nöqtəsinə yerləşdirilməsini doğru qəbul etmir. Aktiv müharibə baş verəcəyi təqdirdə Türkiyənin savaşa qoşulması aktuallaşacaq. Bu da qardaş ölkənin hesabda olmayan müharibə ilə qarşı-qarşıya qalması deməkdir".

**İsmayıl Qocayev**

# Baydenin açıqlaması ən böyük nifrətə layiqdir

## ABŞ qondarma genosid iddiaları ilə bağlı Türkiyə əleyhinə siyasət aparır



**Ermənilərin Türkiyəyə qarşı absurd "soyqırım" mifi bitmir. Hər il aprel ayı "soyqırım" iddiası ilə manipulyasiya edən ermənilər dünyanı "soyqırım" sözünü işlətməyə cəlb edir. Amerika Prezidenti Co Bayden də qardaş ölkəyə qarşı böyük haqsızlıq edərək 1915-ci ildə Osmanlı dövlətində baş verənləri "soyqırımı" adlandırıb. Qeyd edək ki, Bayden ötən il bu hadisələri "soyqırımı" adlandıran ilk ABŞ prezidenti olub.**

Türkiyənin Xarici işlər naziri Mövlud Çavuşoğlu ABŞ Prezidenti Cozef Baydenin 1915-ci ildə Osmanlı dövlətində baş verən hadisələrlə bağlı bəyanatına görə tənqid edib: "Bəzi Qərb liderləri son günlər "soyqırımı" sözünün yalnız məhkəmə qərarından sonra istifadə oluna biləcəyini iddia edirlər. Bu doğrudur! Lakin həmin şəxslərin siyasi motivləri rəhbər tutaraq 1915-ci il hadisələri ilə bağlı məhkəmə qərarı olmadan "soyqırımı" sözünü işlətməsi onların ikiüzlülüyünün ən bariz nümunəsidir".

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi də ABŞ Prezidentinin erməni anım günü ilə əlaqədar çıxışına münasibət bildirib: "ABŞ Prezidenti Co Baydenin erməni anım günü münasibətilə səsləndirdiyi bəyanatında növbəti dəfə 1915-ci il hadisələri ilə bağlı tarixi həqiqətlərin təhrif olunması təəssüf doğurur.

Bir əsr bundan öncə baş verən hadisələrin yanlış şəkildə təqdim edilməsi və qondarma "erməni soyqırımı" məsələsinin siyasiləşdirilərək gündəmə gətirilməsi cəhdləri qəbuledilməzdir. ABŞ prezidentinin bu bəyanatı, həmçinin hazırda Türkiyə və Ermənistan arasında münasibətlərin normallaşması məqsədilə aparılan danışıqlara uyğun gəlmir. 1915-ci il hadisələri siyasətçilər deyil, tarixçilər tərəfindən araşdırılmalıdır. Tarixin saxtalaşdırılması cəhdləri və onun siyasi təzyiq məqsədilə istifadə edilməsi qəbuledilməzdir".

**Politoloq Qabil Hüseynli isə "Şərq"ə açıqlamasında deyib ki, Osmanlı İmperatoru tərəfindən Mesopotamiyadan Şərqi Anadoluya köçürülən ermənilərin sayı cəmi 400 min idi. 1 milyon yarım öldürülmüş erməni əfsanəsini haradan yaradıb dünyaya yaymağa başladılar?**

Sadəcə bu faktın özü belə "erməni soyqırımı" əhvalatının Osmanlı İmperiyasının dağılmasında maraqlı olan qüvvələrin bir oyunu olduğunu sübut edir: "Ermənilər aşırı hiyləgər, hər yoldan nəsə mənfəət götürən mənəviyyatsız xalqdır. Onlar bununla dünyaya xristian-erməni xalqının əzildiyini, məşəqqətlər çəkdiyini, türklər, müsəlmanlar tərəfindən qırıldığını çatdırmağa çalışırlar. Bununla da dünyada özlərinə müəyyən imtiyazlar qazanmağa can atırlar. Halbuki, heç bir erməni soyqırımı olmayıb. Bunlar hamısı uydurmadır. Dünya da bu uydurmanın dalınca gedir. Hakimiyyətə gəldiyi gündən dünyanın altını üstünə çevirən Baydenin heç bir tarixi həqiqətə söykənməyən bir əhvalatı "soyqırım" adlandırması siyasi xal qazanmağa hesablanmış bir manevrdir. ABŞ qondarma genosid iddiaları ilə bağlı Türkiyə əleyhinə siyasət aparır. Burada əsas məqsəd heç də ermənilərə can yandırmaq deyil, qardaş dövlətə təzyiq etmək niyyəti güdür. Əsl genosid hazırda Ukraynada törədilir. Mülki insanlar məhv edilir, amma ABŞ prezidenti bunu sadəcə müharibə cinayəti adlandırır".

*"Əsl genosid hazırda Ukraynada törədilir. Mülki insanlar məhv edilir, amma ABŞ prezidenti bunu sadəcə müharibə cinayəti adlandırır"*

**Politoloqun sözlərinə görə, hələ də sübuta yetirilməyib ki, Osmanlı əsgəri erməni öldürüb ya, yox. Həmin illərdə Osmanlı imperiyasını çökdürmək istəyən yunanlar, ingilislər, ruslar üçün ermənilər bir pion idi:** "Osmanlı ərazisinə köçürülən həmin o 400 min erməni imperiyanın başına bəla olmağa başladı. Qərbin köməyi ilə silahlanan ermənilər təbəəsi olduğu dövlətə qarşı min cür oyunlar oynamağa başladılar. Əvvəla onu deyim ki, bu hadisələrin niyə məhz "erməni genosidi" adlandırılması da qaranlıqdır. O illərdə vuruşan, müharibə aparan türklərlə ermənilər deyildi ki? Çərkəzlər və kürdlər də türklərlə birlikdə bölgəni qarışdırmağa çalışan yunan, ingilis, rus ordusuna qarşı döyüşürdülər. Bu döyüşlərdə ölən türklərin, kürdlərin sayı bəlkə də ermənilərdən çoxdur. Hətta tarixi sənədlərə görə döyüşlərdə ölən yunanların sayı ermənilərdən qat-qat artıqdır. Sadəcə olaraq Co Bayden və onun kimilərin babaları Osmanlı imperiyasını gücdən salmaq, parçalamaq üçün millətlərarası toqquşma yaradaraq Osmanlının günahsız erməni təbəələrinə qarşı kütləvi qırğın törədilməsi yalanını ortaya atdılar. Çox təəssüf ki, qismən də olsa buna nail oldular. İmperiya bölündü və türklər kiçik bir ərazidə öz dövlətçiliyini qoruyub saxlaya bildi. Amma türk düşmənləri bununla da kifayətlənmədi, erməniləri təşkilatlandırıb dünya miqyasında antitürk təbliğatını aparmağa başladılar".

Q.Hüseynli hesab edir ki, Baydenin mövqeyi ABŞ-ın rəsmi qərarı sayıla bilməz: "Bununla bağlı məhkəmə qərarı yoxdur və heç bir sənəd-sübut təqdim olunmayıb. Ağ Ev rəhbərinin bu sayıqlamaları sadəcə siyasi "xaltura" daşıyır: "Millətlərarası münasibətləri bu qədər gərginləşdirmək, alovun üzərinə su əvəzinə benzin tökmək, olmayan bir qırğın haqqında məhkəmə hökmü olmadan genosid adlandırmaq ikili standart yox, sadəcə biabırçılıqdır. Beynəlxalq hüquqi əsası olmayan bir hadisəni sadəcə öz ağlının hökmü ilə "erməni soyqırımı" adlandıran Baydenin bu açıqlamasını çox böyük etiraz və nifrətlə qarşılayıram".

**Şəymən**

# Üçtərəfli görüş regionda təhlükəsizliyə təminatdır

## İran, Azərbaycan və Türkiyə nümayəndələrinin görüşü inkişafa xidmət edəcək

**İran Azərbaycan və Türkiyə nümayəndələrinin iştirakı ilə üçtərəfli iclasa ev sahibliyi edəcək. Bunu İranın Xarici İşlər Nazirliyinin sözçüsü Səid Xətibzadə dünən mətbuat konfransında deyib. S.Xətibzadənin sözlərinə görə, bununla əlaqədar işlər həyata keçirilir.**

O əlavə edib ki, son 10 ay ərzində İran və Azərbaycan arasında bir çox birgə layihələr müəyyənləşib. Müxtəlif səviyyələrdə səfərlər həyata keçirilib.

Nazirlik rəsmisi qeyd edib ki, İran xarici işlər nazirinin iqtisadi məsələlər üzrə müavini Mehdi Səfərinin Azərbaycana bugünkü səfəri də birgə layihələrlə bağlıdır:

"Bu səfərlər təkcə Xarici İşlər Nazirliyi ilə məhdudlaşmır, digər nazirliklər tərəfindən də həyata keçirilir".

**Politoloq Natiq Mirinin "Şərq"ə açıqlamasına görə, gözlənilən görüş geosiyasi baxımdan hər üç dövlətin maraqlarına xidmət edir. Həm ölkələrarası iqtisadi-ticari əməkdaşlıq kontekstində, həm də regionda təhlükəsizliyin təminatı baxımından müsəlman ölkələrinin üçlük formatında layihələr həyata keçirməsi və əməkdaşlıq məsələlərində razılığa gəlməsi regionda sülhün təminatı üçün mühüm məsələdir:**



"Azərbaycanın qərb hissəsi xüsusən Naxçıvanla birləşdirici bir dəhliz rolunu oynamağa başlayıb. Bu yöndə ciddi sənədlər imzalanıb. Bu isə indiki reallıqda Azərbaycan üçün xüsusi əhəmiyyət kəsb edən məsələdir. Zəngəzur dəhlizi deyiləcək kommunikasiyaların yaxın zamanlarda açılması müzakirə predmeti olsa da, müəyyən risklər var. Bu baxımdan İran-Azərbaycan arasında mövcud olan beynəlxalq dəhliz Azərbaycan- Ermənistan münasibətləri kontekstində mövqeləri gücləndirir. Bu müsəlman ölkələrinin birliyində İranın nə dərəcədə səmimi olacağından çox şey asılıdır. Bilirsiniz ki, İranda Azərbaycan və Türkiyəyə qarşı münasibətlər sistemi birmənalı deyil. Hakimiyyət daxilində müxtəlif fikirlərə xidmət edən şəbəkələr mövcuddur və onların zaman-zaman Azərbaycan və Türkiyə əleyhinə müəyyən iddialar qaldırdığının da şahidi oluruq".

**Şəymən**

# Nəticə alınmır

## Gürcüstanın Rusiya ilə danışıqlar aparması mənasızdır

**Rusiya və Gürcüstan arasında Cenevrə danışıqları BMT, ATƏT və Avropa İttifaqının təşəbbüsü ilə fasiləyə qoyulub. Bu barədə Rusiya Xarici İşlər Nazirliyinin (XİN) MDB ölkələri üzrə 4-cü Departamentin direktoru Denis Qonçar bildirib.**



*"Rusiya postsovet məkanındakı dövlətləri tam nəzarətə almaq üçün region ölkələrinin ərazilərini işğalda saxlayır"*

Qonçar deyib ki, bu, onların seçimi deyil, təşəbbüs həmsədrlər üçlüyünə məxsusdur: "Həmsədrlər danışıqların 56-cı raundunu qeyri-müəyyən vaxta qədər təxirə salıb". Departament direktoru qeyd edib ki, BMT, ATƏT və Aİ müzakirələri "girov"götürüb. XİN rəsmisinin fikrincə, formatın işinin dayandırılması Cənubi Qafqazda sabitlik və təhlükəsizliyin möhkəmləndirilməsinə kömək etmir. Qeyd edək ki, Gürcüstan və Rusiya arasında beynəlxalq Cenevrə danışıqları BMT, ATƏT və Aİ-nin vasitəçiliyi ilə 2008-ci ilin oktyabr ayından aparılır. Bu danışıqlar Gürcüstan və Rusiya arasında gücün tətbiq edilməməsi üzrə öhdəliklər, beynəlxalq təhlükəsizlik mexanizmlərinin yaradılması və məcburi köçkünlərin evlərinə dönməsi ilə bağlı məsələlərin müzakirə olunduğu yeganə formatdır.

**Politoloq Azər Qasımov "Şərq"ə bildirib ki, Moskva-Tbilisi danışıqlarının predmetinə nəzər salsaq, məsələnin mahiyyəti aydın olar. Analitik qeyd edib ki, Rusiyanın işğal etdiyi və rəsmi şəkildə "tanıdığı" qondarma qurumun gələcəyi ilə bağlı yenidən Gürcüstanla danışıqlar aparmaq mənasızdır:** "Danışıqların sayından da göründüyü kimi müzakirələr heç bir nəticə vermir. Rusiya həmişəki oyununu oynayır. Moskva özünü problemi həll etmək istəyən tərəf kimi göstərir. Əslində isə problemi yaradan məhz Kremldir. Rusiyanın Qərbi ittiham etməsi ikiüzlülükdür. Mənasız danışıqların bərpası Ukrayna-Rusiya müharibəsi fonunda mümkün deyil. Həm də müzakirələrə yenidən başlamaq ABŞ və Avropanın Rusiyaya qarşı tətbiq etdiyi sanksiyalar fonunda Moskvanın beynəlxalq arenada itirilmiş imicinin bərpası, eyni zamanda işğalçı Rusiyaya qarşı münasibətdə qeyri-səmimiyyət görüntüsü yaradar. Bu baxımdan, danışıqların tezliklə bərpası mümkünsüzdür. Gürcüstan hökumətinin Qərbə rəğmən, addım atması böyük siyasi səhv olar. Nəticədə Tbilisi Moskva qarşısında təklənər. Gürcü hökumətinin Rusiyayönlü olduğunu nəzərə alsaq, təktərəfli addımın atılması ehtimalı var. Ancaq bu, özünü aldatmaqdır. Rusiya postsovet məkanındakı dövlətləri tam nəzarətə almaq üçün region ölkələrinin ərazilərini işğalda saxlayır".

**İsmayıl Qocayev**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması**



# İşçinin əlində mütləq sənəd olmalıdır

## Əmək müqavilələrinin sayının artması müsbət haldır

**”Son 3-4 il ərzində Azəbaycanda 400 min əmək müqaviləsi bağlanıb. Bu, 30 faizlik artım deməkdir. Ölkədə əmək haqqının minimum məbləği 2,3 dəfə, orta əmək haqqı isə 40 faizdən çox artıb. Əmək haqqı fondu 2 dəfədən çox artıb, özəl sektorda əmək haqqı fondu isə 2,2 dəfə artıb”. Bunu Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev bildirib.**

Onun sözlərinə görə, bütün bu islahatlar cəmi 3 illik fəaliyyətin nəticəsidir: ”Bu islahatlar təkcə dövlət tərəfindən aparılmır. Dövlət addımı atır, nəticəsi sahibkarlar və işəgötürənlərdən gəlir. Bu gün alıcılıq qabiliyyəti paritetinə görə və nominal ifadədə Azərbaycanda minimum əmək haqqı məbləği artıq MDB məkanında ikinci yerdədir. Azərbaycanda çox ciddi əmək münasibətləri bazası formalaşıb”. Sahil Babayev qeyd edib ki, yeni ”Əmək münasibətləri və məşğulluq altsistemi” (ƏMAS) mayın 1-dən istifadəyə veriləcək. Bununla da əmək müqavilələri tam elektron formatda imzalanacaq. Bu günə qədər yalnız bildirişlər sistemi idisə, bundan sonra tam əmək müqaviləsi elektron olacaq”. Nəzərdə tutulan yeniliklər haqqında danışan nazir bildirib ki, mərhələlərlə məşğulluq reyestri, ölkə üzrə məşğulluq xəritəsi və digər bu istiqamətdə yeniliklər təqdim olunacaq: ”Düşünürük ki, ilin sonuna qədər artıq Azərbaycanda hər bir işəgötürənin, hər bir sahibkarın tam şəkildə çıxış əldə etdiyi ES-Pİ, İRP kimi sistemlərə bərabər elektron əmək inzibatçılığı sistemi olacaq”.

Məlumdur ki, ölkədə əmək hüquqları Əmək Məcəlləsinə görə tənzimlənir. Əmək Məcəlləsi hər bir vətəndaşın əmək hüquqlarını qoruyan hüquqi bazadır. Lakin bəzən işəgötürənlər xüsusən də vergidən yayınmaq üçün işçi ilə əmək müqaviləsi bağlamaqdan imtina edir. Bəzi hallarda isə vətəndaş özü əmək müqaviləsinin bağlanmasında maraqlı olmur. Ya bilərəkdən, ya da məlumatsızlıqdan. Ümumiyyətlə, əmək hüquqlarının nəzərə alınmadığı xidmət sahələri də mövcuddur. Fərdi evlərdə xidmət göstərənlər, şəxsi avtomobili ilə sürücülük edənlər, kiçik sahibkarlıq obyektlərində çalışanlar əmək müqaviləsindən xəbərsiz işləyir. Ola bilsin, əmək müqaviləsinin bağlanması kiçik qazanclı işlərdə sərf etmir. Lakin təqaüd yaşı yetişdikdə bu insanlar hansı məbləğdə əmək pensiyası alacaq və ümumiyyətlə ala biləcəklərmi? Dövlət vətəndaşın normal yaşayış, gəlir əldə etmək hüquqlarını qoruyur, əmək müqaviləsi kimi hüquqi sənədi təsdiq etməklə vətəndaşın gələcəyini, qocalığını təmin edir. Lakin işəgötürənlərin səhlənkarlığı, məsuliyyətsizliyi və daha çox gəlir əldə etmək istəyi işçi ilə əmək müqaviləsinin imzalanmasını arxa plana keçirir, zərbə isə sonunda yenə də işçiyə dəyir. Vətəndaşın hüququnu bilməsi bu mənada vacibdir. Əmək müqaviləsi vətəndaşa hansı üstünlükləri verir?

**Neftçilərin Hüquqlarını Müdafiə Təşkilatının hüquqşünası Azər Quliyev ”Şərq”ə açıqlamasında əmək müqaviləsinin işçinin gələcək təminatı üçün mühüm əhəmiyyət daşıdığını bildirdi:**

- Əmək müqavilələrinin sayının artması, əlbəttə müsbət haldır. Hər bir əmək müqaviləsi işçinin hüquqlarının qorunması deməkdir. Əmək Məcəlləsi artıq uzun illərdir ki, təsdiqlənib, qəbul olunub. Amma hələ də ƏM-dən yayınmağa çalışanlar var. Dövlət müəssisələrində, dövlət tabeliyindəki idarə və təşkilatlarda belə bir problem yoxdur. Problem əsasən kiçik müəssisələr, istehsal sahələri, sahibkarlıq subyektləri ilə, eyni zamanda fərdi çalışanlarla bağlı yaşanır. Əmək müqaviləsinin bağlanmaması bu deməkdir ki, çalışanın heç bir hüququ tanınmır. Sabah-birisigün işçi xəstələnəndə, xəsarət aldıqda ona heç bir maddi yardım göstərilmir, təzminat ödənmir. Tikintidə çalışıb istehsalat xəsarəti almış insanlar olur, bəzən, təəssüf ki, fəhlənin hündürlükdən yıxılıb vəfat etməsi xəbərlərini oxuyuruq, məlum olur ki, əmək müqaviləsi, əmək münasibətləri hüquqi tənzimlənməsi yoxdur. Bu məsələdə ƏƏSMN-nin müvafiq strukturları ciddi monitorinqlər aparmalıdır. Lakin bu da hər zaman mümkün olmur. Ona görə də vətəndaş, işçi özü əmək müqaviləsinin bağlanmasında maraqlı olmalıdır. Əmək müqaviləsi əmək münasibətlərinin hüquqi tənzimlənməsidir. Bunun sayəsində işçi əmək haqqının ödənməsini tələb edə bilir, məzuniyyət hüququ əldə edir, bura analıq məzuniyyəti də daxildir, xəstə olduqda müalicə ala bilir, xəsarət aldıqda təzminat tələbi irəli sürür. Bundan başqa təqaüd yaşına çatdıqda artıq onun hesabında bəlli bir məbləğ toplanmış olur ki, bunun sayəsində də əmək pensiyası ilə təmin edilir. Bu gün əmək pensiyasının təyinində çətinliklə üzləşmiş vətəndaşlarımız var. Nəyin hesabına bu çətinliyi yaşayırlar, məhz əmək münasibətlərinin hüquqi tənzimlənməməsi səbəbindən. Bu mənada son illərdə əmək müqavilələrinin bağlanması artıbsa, əlbəttə, sevindirici haldır.

**A.Quliyev qeyd etdi ki, formal əmək müqavilələri də olur. Bəzən işəgötürən işçi ilə əmək müqaviləsi imzalayır, lakin əslində bu, formal xarakter daşıyır, mahiyyətinə uyğun icra edilmir:**

*“Bütün hallarda əmək münasibətlərinin istənilən formada hüquqi tənzimlənməsi işçiyə güvən hissi verir. İşçi özünü sığortalanmış hesab edir”*

- Vətəndaşlrın hüquqi savadlılığı da əsas məsələdir. Hər bir vətəndaş digər hüquqları haqqında məlumatlı olduğu kimi əmək hüquqlarını da bilməlidir. Bəzən işçi elə zənn edir ki, əmək münasibətləri yalnız əmək müqaviləsi ilə tənzimlənir. Halbuki, Əmək Məcəlləsi bütün hallara şamil edilir. 2 növ əmək müqaviləsi var: Əmək Məcəlləsinə uyğun əmək müqaviləsi, bir də Mülki Məcəlləyə uyğun mülki əmək müqaviləsi. Mülki əmək müqaviləsi, məsələn, fərdi çalışanlara, müxtəlif layihə həyata keçirənlərə şamil edilə bilər. Bu müqavilə ilə çalışanlar qazanclarının 5 faizini Sosial Müdafiə Fonduna köçürür. Əmək müqaviləsində isə bu, 14 faizdir. Fərq bundadır ki, əmək müqaviləsi ilə işləyənlərin əmək pensiyası mülki müqavilə ilə çalışanlara nisbətən daha yüksək hesablanacaq. Amma bütün hallarda əmək münasibətlərinin istənilən formada hüquqi tənzimlənməsi işçiyə güvən hissi verir. İşçi özünü sığortalanmış hesab edir. Az və ya çox, o qədər də önəmli deyil. Əsas odur ki, zərurət yarandıqda işçinin əlində hüquqi sənəd olsun. Mən yenə də işçilərə, çalışanlara əmək hüquqları barədə məlumatları bilmələrini tövsiyə edirəm.

**Məlahət Rzayeva**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# İran əndişədədir

## Tehran alternativ variantları gözdən keçirir



**İsmayıl Qocayev**

**“Türkiyə Silahlı Qüvvələrinin İraqın şimalında PKK terror təşkilatına qarşı başlatdığı ”Pəncə-Kilid” hərbi əməliyyatları Ankara-Tehran münasibətlərindəki hibrid müharibənin dozasını artırıb”.**

Bu barədə ”Şərq”ə açıqlamasında siyasi şərhçi Aqşin Kərimov deyib. Analitik bildirib ki, Türkiyənin hərbi əməliyyatlarının hədəfi, regionun təhlükəsizlik zolağına salınması, öz milli təhlükəsizliyinə qarşı yönələn təhdid elementlərini aradan qaldıraraq bufer zona yaratmaqdır: ”Ankaranın yaxın zamanlarda bu istədiyinə bütövlükdə nail olacağını proqnozlaşdırmaq düzgün olmazdı. Çünki istər Suriya, istərsə də İraq ərazisindəki anti-terror əməliyyatları təhdid mənbələrini tam aradan götürməyib. Təhdidlərin regenerasiya olunması Türkiyə-İran münasibətləri müstəvisində izaha ehtiyac yaradır. Çünki regiona baxış bucağında Ankara ilə Tehranın fərqli mövqeləri mövcuddur. İranın strategiyası bundan ibarətdir ki, Türkiyənin İraqdakı hərəkətliliyini minimuma endirsin. Bunun üçün özünün çətiri altında olan şiə qruplaşmalarının PKK ilə əlaqəsində əhəmiyyətli koordinasiya yaradır. Son zamanlar İran İraqdakı Türkiyə bazalarını hədəfə alması da onun İraqda təkbaşına hərəkət etmədiyinin göstəricisidir. Bütün bu hadisələr İranın PKK-nı qorumaq və terror qruplaşmasını Türkiyəyə qarşı fəaliyyətinin alovlandırmaq strategiyasının bir hissəsidir. Hərçənd ki, İranın öz daxilində etnik kürdlərlə problemləri mövcud olub və bu məsələdə PKK kürdlərə dəstək göstərib. Lakin bu məsələ İranın öz hüdudları ilə məhdudlaşıb. Çərçivələrin xarici ölkələrə düşən hissəsində Tehran PKK amilini əlinə verilən kart kimi dəyərləndirir. Terrorçular Türkiyə tərəfindən ağır təzyiqlərə məruz qalanda Tehran onlara yardım əlini uzadır”.

**Ekspertin fikrincə, əvvəllər bu yardım PKK-nı sığınacaqlarla təmin etməklə məhdudlaşırdısa, indi İranın patronajlığı altındakı şiə silahlıları Suriyadan İraqa qədər olan ərazidə Türkiyəyə qarşı vahid cəbhədə birləşirlər:** ”Türkiyənin hərbi əməliyyatları İranı narahat edir, ona görə ki, PKK-nın İraqda məhvi İranı ən əhəmiyyətli resurslarının birindən məhrum edəcək. Təhlükəsizliyin qavrayışı ilə bağlı yanaşmalar Türkiyə-İran münasibətlərini kiber müstəviyə qədər sürükləyir.

Son günlər Türkiyənin bəzi dövlət əhəmiyyətli saytlarının İran tərəfindən kiberhücumlara məruz qalması bu arqumenti səsləndirməyə imkan verir. Ümumiyyətlə, İran özünün nəzarəti altında olan qruplar vasitəsilə ”kiber ordu” yarada bilib. Bu işdə ona ən əhəmiyyətli dəstək ”Hizbullah” tərəfindən verilir.

Ancaq Türkiyə üçün İranın bu cür həmlələrinin əhəmiyyəti olmayacaq. Ankara kifayət qədər güclü müdafiə təsisatlarına malikdir. Türkiyə ilə İran arasında ”yumşaq müharibə” davam edəcək. Türkiyənin regionda ciddi uğurlara imza atması Tehranı alternativ variantlara sürükləyəcək”.



# Qarabağ üzərində Rusiya və Avropa İttifaqı rəqabəti var

## Aqşin Kərimov: “Azərbaycanın siyasi qətiyyəti, ordu gücü böyük güclərin ambisiyalarını neytrallaşdırır”

**Bakı ilə İrəvan arasında imzalanması planlaşdırılan sülh müqaviləsi təkcə Azərbaycan ilə Ermənistanın yox, dünyanın bir sıra aparıcı ölkələrinin diqqət mərkəzindədir. Bu ölkələrin birincisi, şimal qonşumuz Rusiyadır.**

Moskva Bakı ilə İrəvan arasında sülh razılaşması üzrə danışıqlara öz töhfəsini verir və tərəflər arasında etimad və qarşılıqlı anlaşma mühiti yaratmaq niyyətindədir. Bu barədə Rusiya Xarici İşlər Nazirliyinin MDB ölkələri üzrə dördüncü departamentinin direktoru Denis Qonçar müsahibəsində bildirib.

”Biz Azərbaycan və Ermənistan arasında sülh razılaşmasının nizamlanmasına köməyimizi göstəririk. Rusiya tərəfi ümumi dil tapmaq, etimad və qarşılıqlı anlaşma mühiti yaratmaq üçün Bakıya və İrəvana hər cür kömək etməyə davam etməkdə qərarlıdır. Eyni zamanda biz üçüncü ölkələrin üçtərəfli səylərimizi tamamlaya biləcək və geosiyasi oyunlar məntiqinə əsaslanmayan təşəbbüslərini alqışlayırıq”, - deyə Qonçar bildirib.

*Azərbaycan ilə Ermənistan arasında sülh müqaviləsinin imzalanmasında maraqlı görünən bir digər ölkə isə Fransadır. Belə ki, Fransa səfiri Zaxari Qross Azərbaycan-Ermənistan münasibətlərinin normallaşmasına dəstək verməyə hazır olduqlarını bildirib.*

”Fransa Avropa İttifaqı ilə birlikdə Azərbaycan və Ermənistan liderlərinin son səylərini tam dəstəkləyir və iki ölkə arasındakı münasibətlərin normallaşmasına dəstək verməyə hazırdır. Yaxın vaxtda Azərbaycanla Ermənistan arasında sülh sazişinə dair danışıqlar keçirilməsi üçün həqiqi imkanlar var. Bu məsələni hər iki ölkənin lideri müzakirə edib. Onlar arasında başlıca məsələlərə dair məktub mübadiləsi aparılıb, rəsmi təmaslar baş tutub. Həmçinin vətəndaş cəmiyyəti nümayəndələri də görüşüblər. Bütün bunlar ehtiyatlı nikbinlik üçün əsas yaradır”,- o deyib.

**Dünya ölkələrinin imzalanacaq sülh müqaviləsindəki təşəbbüslərini ”Şərq”ə dəyərləndirən siyasi şərhçi Aqşin Kərimov bildirib ki, bu məsələ, istər Rusiyanın, istər ABŞ-ın, istərsə də, Fransanın maraq dairəsinin Cənubi Qafqaz üzrə prioritetləri sırasındadır:**

”Fransa prosesdən kənarda qalıb, ortaya yeni oyunçu çıxıb. Bu, Avropa İttifaqıdır. Fransa Avropa İttifaqının üzvü kimi prosesdə iştirak edir, amma bu, Rusiya, ABŞ və Avropa İttifaqının təşəbbüslərinin yanında çox sönük görünür. Proseslərdə müəyyən qara nöqtələr yaransa da, gedişat ümumilikdə sülhün və təhlükəsizliyin xeyrinə doğru yön alır.

Ortada Türkiyə faktorunun olması və Azərbaycanın siyasi qətiyyəti, ordu gücü böyük güclərin ambisiyalarını neytrallaşdırır və onu yalnız töhfəverici təkliflərə kökləyir. Qərb-Rusiya kontekstində Avropa İttifaqı prosesə yeni element qatmaq istəyir, Moskva isə bunun əvəzini çıxır.

Məsələn, Brüsseldə əldə edilmiş razılıqlara alternativ olaraq Rusiya Azərbaycan-Ermənistan münasibətlərinin normallaşmasına dair xüsusi nümayəndə təyin edib”.

Aqşin Kərimov sonda qeyd edib ki, bu rəqabət bizim xeyrimizədir, sülh gündəliyini daha parlaq zəmin üzərində formalaşdırmaq üçün praqmatik təklifləri gündəmə gətirir.

**Çimnaz**

# Qarşıdurma yaradırlar

## Avropada islam dininə qarşı həmişə hücum olub

**İsveçin müxtəlif şəhərlərində Pasxa bayramları zamanı polisin mühafizəsi altında ”Qurani-Kərim”i yandıraraq müsəlmanları təhrik edən radikal sağçı ”Stram Kurs” partiyasının lideri Rasmus Paludan təxribatlarını Danimarkaya daşıyıb.**

O, Tarnbi şəhərində polisin mühafizəsi altında ”Qurani-Kərim”i yandıraraq sosial şəbəkədə yayımlayıb. Aksiyanı lentlə əhatələnmiş ərazidə həyata keçirən siyasətçini 30-a yaxın polis, Danimarka Kəşfiyyat İdarəsinin 7 mülki geyimli əməkdaşı mühafizə ediblər. Məlumat üçün bildirək ki, Danimarka və İsveç vətəndaşlığı olan radikal sağçı Rasmus Paludan 2017-ci ildən bəri Danimarkanın müxtəlif şəhərlərində Quran yandırmaqla məşğuldur. Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri şeyxülislam Allahşükür Paşazadə də İsveç və Danimarkada Quranın yandırılmasını pisləyib. Şeyxülislam dünyanın müxtəlif nöqtələrində dini məkan və rəmzlərin təhqir olunması hallarının, o cümlədən Ramazan ayında ”Qurani-Kərim”in yandırılmasını qətiyyətlə pisləyib. A.Paşazadə dini heysiyyətdən siyasi məqsədlər üçün sui-istifadə edilməsinin yolverilməzliyini və bütün dinlərin liderləri tərəfindən birmənalı şəkildə qınanılmalı olduğunu bildirib.



*“Hadisənin diqqətçəkən tərəfi odur ki, "Qurani-Kərim"i yandıran radikal siyasətçini polislər, kəşfiyyat orqanının əməkdaşları mühafizə edirlər”*

**Ağ Partiyanın sədr müavini Əhəd Məmmədli ”Şərq”ə bildirib ki, bu arzuolunmaz hadisələr Avropa insan hüquqlarının, mənəvi dəyərlərə və islam dininə baxışın hansı səviyyədə olduğunu ortaya qoyur. Partiya funksioneri bəyan edib ki, indiyə qədər heç bir müsəlman ölkəsində, hətta ən radikal islam dövlətlərində belə bənzər hadisələr, digər dinlərə məxsus dəyərlərin təhqir olunması halları baş verməyib:** ”Xristianların Pasxa bayramında hansısa islam ölkəsində ”İncil”in, yaxud ”Tövrat”ın yandırıldığını görmüsünüzmü? Görə bilməzsiniz, çünki heç vaxt olmayıb. Fikir verirsizsə, belə olaylar ancaq xristian ölkələrdə, ələlxüsus Avropada yaşanır. Qərb ölkələrində bəzi siyasətçilər, radikal şəxslər islam dininə məxsus müqəddəs dəyərləri qərəzli şəkildə təhqir edirlər. Dəfələrlə ”Qurani-Kərim”i yandırıblar, müsəlmanları təhrik ediblər, qarşıdurmaya səbəb olublar. Hadisənin diqqətçəkən tərəfi odur ki, ”Qurani-Kərim”i yandıran radikal siyasətçini polislər, kəşfiyyat orqanının əməkdaşları mühafizə edirlər. Buna nə ad vermək olar?! Ən geridə qalmış müsəlman ölkəsində bənzər təxribat görmək mümkünsüzdür. Amma inkişaf etmiş İsveç, Danimarkada islam dini və müsəlmanlar polislərin qoruması altında təhqir olunurlar. Bu hadisə kimlərin sivil, kimlərin barbar olduğunu bir daha göstərir”.

**İsmayıl Qocayev**

# Azad bazar yoxdur



## Niyə rayonlardan məhsul daşıyan bütün maşınlar meyvə bazarına daxil olub, çıxmalıdır?

**"Azərbaycan pomidor bazarında tələb təklifi üstələyir, çünki bu məhsulun istehsalı üzrə hazırda qıtlıq müşahidə olunur". Bunu "Report"a "Azərbaycan Meyvə-Tərəvəz İstehsalçıları və İxracatçıları Assosiasiyası" İctimai Birliyinin sədri Bəşir Quliyev bildirib. Onun sözlərinə görə, pomidorun yetişməsi 7-8 həftəyə başa gəlir: "7-8 həftə bundan əvvəl qışın ən soyuq günləri idi.**

Ona görə pomidorun yetişmə prosesi zəif sürətlə gedirdi. Bu səbəbdən pomidor istehsalında aprel ayında məhsuldarlıq azdır. Lakin bir həftədən sonra vəziyyət dəyişəcək, pomidor yetişir, istehsal həcmi artır". B.Quliyev əlavə edib ki, sahə pomidorları ölkənin həm cənub rayonlarında, həm də Xaçmaz zonasında iyul ayında bazara çıxmağa başlayır. "Hazırda istehsalçılarda böyük həcmdə pomidor ehtiyatı yoxdur. Bu səbəbdən qiymətlər artır. Ümumiyyətlə, martın sonu aprel ayı ərzində pomidorun ən baha qiymətə satılan vaxtıdır. Hesab edirəm ki, bir həftəyə qiymətlər enəcək. Tendensiyaya baxsaq, 10 il bundan əvvəl qışda pomidorun 1 kq-ı 8 manat idi, həm qış fəslində camaat pomidor yemirdi. Bu məhsul ancaq toylarda, ad günlərində istifadə olunurdu. İstixana şəraitində pomidorun yetişdirilməsi genişlənəndən sonra artıq Azərbaycan istehlakçısı üçün qışda pomidor qismən aşağı qiymətə 3,5 manata təklif edildi. Qış ayında bu qiymətə pomidor almaq böyük irəliləyişdir. Bir neçə il bundan əvvəl 5-6 manat 8 ABŞ dolları demək idi, hazırda isə 3 manat 2 ABŞ dollarından azdır. Bu deməkdir ki, 10 il ərzində pomidorun qiyməti təqribən 4 dəfə azalıb. Bu gün istixana şəraitində pomidorun yetişdirilməsində aşağı likvidlilik səviyyəsində olan qiymətlərdir. Yəni, pomidorun qış ayında satış qiyməti bir-iki manat ola bilməz. Pomidor qış aylarında iki manata satılsa, bu onun qazdan istifadəni, işçilərin maaşını, gübrənin, toxumun qiymətini ödəməyəcək". B.Quliyev dünya bazarlarında

### *İnhisarçılıq səbəbindən hər gün, hər saat pomidor, kartof, soğanın qiyməti bahalaşır*

gübrənin 3 dəfə bahalaşdığını deyib: "Rusiya gübrə ixracına qadağa qoyub. Bu isə dünya bazarlarında gübrənin bahalaşmasına səbəb olub. İstixana şəraitində istifadə edilən damlama gübrələri Azərbaycana artıq Rusiyadan yox, Avropadan, Çilidən, İsraildən gəlir. Bu il "SOCAR Karbamid" tərəfindən yerli bazara daha ucuz qiymətə karbamid təklif edib. "SOCAR Karbamid" karbamidi ötən il hansı qiymətə yerli bazarda satmışdısa, bu il də həmin qiymətə satıb. Buna görə dünya bazarlarında gübrənin qiymətinin artması ölkə bazarına böyük təsir göstərməyəcək". B.Quliyev əlavə edib ki, hazırda dünya bazarlarında toxum da bahalaşıb. İstixana sektorunda istifadə olunan toxumların 99 faizi xaricdən gəlir. Toxumçuluğun inkişafı üçün 10 ilə yaxın müddət lazımdır. 3-4 ildir ki, Kənd Təsərrüfatı Nazirliyi bu işlərlə məşğuldur, ona görə daxili tələbatın böyük hissəsi xarici toxum hesabına qarşılanır".

**İqtisadçı Fuad İbrahimov "Şərq"ə açıqlamasında bahalaşma ilə bağlı hər il eyni bəhanələrin səsləndiyini bildirdi:**

- Biz hər il eyni açıqlamaları, eyni səbəbləri, əslində isə yalnız bəhanələri eşidirik. Deyilənlər ancaq bəhanədir. BMT-nin son 10 illik ərzaq proqramına nəzər yetirsəydilər, görərdilər ki, orada dünya üzrə ərzağın bahalaşması hansı şəkildə proqnozlaşdırılır, hansı faktlar açıqlanır. Yəni biz 10 il əvvəldən buna hazır olmalıydıq, hazırlaşmalıydıq. Amma indi deyirlər ki, toxumçuluğun inkişafı üçün 10 il lazımdı, Kənd Təsərrüfatı Nazirliyi 3-4 ildir bu işlərlə məşğuldur. Bəs dünənədək hansı işlə məşğul olurdular? Dünyada sürətli bahalaşma gedir, bizimkilərsə hələ indi-indi nəsə etməyə hazırlaşırlar. Hər il pomidor gündəmə gəlir, gah kartof tapılmır, gah soğan. Soğanın kiloqramı az qala 2 manata qalxdı bu il. Sizi inandırıram, növbəti il də belə olacaq. Çıxıb deyəcəklər ki, qış aylarında məhsuldarlıq aşağı düşüb, tərəvəz yetişmir, toxumu xaricdən alırıq, gübrəni xaricdən alırıq, bir sürü bəhanə. Cənab Prezident idxaldan asılılığın azaldılmasının vacibliyini dəfələrlə vurğulayır. Büdcədən vəsait ayrılır. Daha nə deməlidir ki, məmurlar tərpənsin, əməli işlə məşğul olsunlar?! Elə etmək lazımdır ki, problem olmasın. Amma ancaq problemdən danışırlar. Problemi mən də görürəm, siz də. Bəs bunun həll yolu yoxdur? Əlbəttə var. Bunun üçün də gərək hər sahədə o sahənin mütəxəssisi işləsin. İşi bilmirlərsə, çəkilsinlər kənara, işi bilən gəlsin. 30 ildir müstəqillik, hələ də idxal asılılığını həll edə bilməmişik. Bu, bacarıqsızlıqdı, idarəçilik qabiliyyətinin, menecmentlik institutunun olmamasıdır.

**F.İbrahimov qeyd etdi ki, əgər meyvə-tərəvəzin bazara sərbəst girişi təmin edilsə, qiymət bahalaşmasının qarşısı alınar:**

- Belə qayda qoyulub ki, meyvə-tərəvəz daşıyan avtomobillərin hamısı mütləq meyvə bazarına daxil olub, çıxmalıdır. Orda fermerin məhsulunu əlindən alıb özünü yola salırlar. Sonra da meyvə-tərəvəzi özləri bazara çıxarırlar. Onsuz da bizdə azad bazar yoxdur. Amma yük maşınlarının sərbəst hərəkətinə, həyətlərdə, müxtəlif ərazilərdə rahat alış-verişə icazə verilsə, sizi inandırıram, istehlakçı səbətinə ucuz meyvə-tərəvəz daxil olacaq. Nə bunu edirlər, nə də bazara nəzarət edilir. Ona görə də qiymətlər istədiyi kimi qalxır, enir.

**Məlahət Rzayeva**

**Təbrik edirik!**

Əziz nəvəmiz İsfəndiyar, səni 10 yaşının tamam olması münasibətilə bütün ailə üzvlərimiz, qohumlar, qonşular, səni istəyib sevənlər ürəkdən təbrik edir. Sənə uzun ömür, cansağlığı, həyatda xoşbəxtlik, savadlı olmaq və firəvan həyat arzulayırıq.



# Xalq artisti Cıdır düzündə "Azərbaycan maralı" oxudu



**Xalq artisti Gülyanaq Məmmədova Şuşaya gedib.**

Sənətçi Cıdır düzündə "Azərbaycan maralı" mahnısını səsləndirib. Sözügedən görüntüləri sənətçi sosial şəbəkədə paylaşıb.

*Qeyd edək ki, sənətçi bir neçə gün əvvəl Şuşa şəhərində keçirilən Dünya Azərbaycanlılarının V Qurultayında iştirak etmişdi.*

**Elan**

Məmmədov Yaqub Tahir oğlunun adına 2017-ci ildə 59 saylı tam orta məktəb tərəfindən verilmiş Attestat itdiyi üçün etibarsız sayılır.

"NURVİN-ST" şirkətinə məxsus möhür itdiyi üçün etibarsız sayılır.

**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**

**KURSLAR**

**-MÜHASİBAT** (2 AY)

**-Mobil telefonların təmiri** (3 ay)

**-KOMPYUTER** (1-3 AY)

**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)

**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)

**-Dizayn** (3-6ay)

**-Masaj** (3 ay)

**-Biçmə - Tikiş** (3 ay)

**-Məktəb Psixologiyası** (12 ay)

**Tel: (012) 489-08-84**

**Mob: (070) 241-28-67**

**www.az-baku.com**

# "Vətən mənə oğul desə..."

## Şagirdlərin hərbi məktəbi ziyarət etməsi təqdir olundu

**Bakıda məktəblilər ali hərbi məktəbi ziyarət ediblər. Bakı şəhəri Yasamal rayonu Aslan Ağaverdiyev adına 31 nömrəli tam orta məktəbin şagirdləri Cəmşid Naxçıvanski adına hərbi liseyi və Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini ziyarət ediblər. Bu barədə Müdafiə Nazirliyi məlumat verib.**

İlk növbədə, ümummilli lider Heydər Əliyevin, eləcə də Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olan soydaşlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Şagirdlərə xüsusi təyinatlı təhsil müəssisələrinin yaranma tarixi və fəaliyyəti barədə məlumat verilib. Onları maraqlandıran suallar cavablandırılıb.

Qonaqlar hərbi liseyin və ali hərbi məktəbin ərazisi, əsgər yataqxanası və yeməkxana, tibb məntəqəsi, idman şəhərciyi və hamam-camaşırxana kompleksi ilə tanış olublar. Şagirdlərə hərbi kafedralarda döyüş texnikası, atıcı silahlar və onlardan istifadə qaydaları haqqında ətraflı məlumat verilib.

Hərbi təhsil ocaqlarında ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən eksponatlar ziyarətçilərin marağına səbəb olub.

Sonra məktəblilərin Azərbaycan Hərb Tarixi Muzeyinə ekskursiyası təşkil edilib. Şagirdlər açıq səma altında müxtəlif qoşun növlərinə aid texnikalardan ibarət ekspozisiya ilə tanış olub. Xatirə şəkli çəkdiriblər.

Silsilə tədbirlərin yekunu olaraq, A.Ağaverdiyev adına 31 nömrəli tam orta məktəbdə "Vətən mənə oğul desə..." adlı ədəbi-bədii kompozisiya təqdim edilib.

Tədbirdə Müdafiə Nazirliyinin əməkdaşları, Vətən müharibəsinin iştirakçıları, məktəbin müəllim və şagirdləri, eləcə də ictimaiyyətin nümayəndələri iştirak ediblər.



***Əhməd Qəşəmoğlu: "Bu ziyarətin təşkili ola bilsin ki, uşaqlarda vətənsevərlik ruhunun yaranması ilə yanaşı, gələcəyin bir komandanı olmaq arzusuna səbəb olacaq"***

Çıxış edənlər bu cür tədbirlərin gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyə edilməsində, orduya hazırlanmasında, hərbi biliklərə yiyələnməsində və onlarda hərbi peşələrə marağın oyadılmasında müstəsna əhəmiyyətindən danışıblar.

Məktəbin müəllim və şagirdləri tədbirin təşkilində göstərilən dəstəyə görə Müdafiə Nazirliyinin rəhbərliyinə təşəkkürünü bildiriblər. Sonda şagirdlərin ifasında vətənpərvərlik mövzusunda şeirlər və mahnılar səsləndirilib.

**Professor, sosioloq Əhməd Qəşəmoğlu "Şərq"ə açıqlamasında bildirib ki, bu istiqamətdə işlər çoxdan başlanılmalı idi:** "Mütəxəssislərlə birgə belə addımların vacib olduğunu vurğulayırıq. Nəinki vətənpərvərlik mövzusunda, həmçinin orta məktəb şagirdləri müxtəlif peşə məktəbləri, istehsal müəssisələri, ümumilikdə ölkə üçün vacib olan sahələr barədə praktik biliklərə malik olmalıdırlar. İndiki vaxtda orta məktəblərdə də hər bir şagirdin istedadının üzə çıxması üçün şərait yaratmalıyıq. Bu ziyarətin təşkili ola bilsin ki, uşaqlarda vətənsevərlik ruhunun yaranması ilə yanaşı, gələcəyin bir komandanı olmaq arzusuna səbəb olacaq. Elə şagird olacaq ki, hərbi liseyin üzvlərini görüb, həvəslənəcək. Orada təhsil alanların qeyri-adi insanlar olmadığını görəcəklər. Beləliklə, hərbi məktəbdə oxumaq haqqında düşünəcəklər. Belə ziyarətlərin təşkili praktikası təkcə bir məktəbdə yox, bütün təhsil prosesində çox geniş aparılmalıdır. Təhsil Nazirliyi bununla bağlı fəaliyyət göstərməlidir. Belə olduqda uşaqlar artıq gələcək ixtisaslarını seçərkən aydın məlumatlı olacaqlar. 6-7 il əvvəl sorğu keçirərkən məlum olub ki, 10-11-ci sinif şagirdlərinin ölkə üçün əhəmiyyətli olan peşələr barədə heç bir lazımi məlumatı yoxdur. Bəzən insanlar ixtisas müəyyənləşdirəndə ətrafındakı qonşusuna, dostuna baxır, seçir. Bir başqası məsələn, biznes sözü xoşuna gəldiyi üçün həmin yöndə davam etmək istəyir. Təbii ki, bir film izləməklə onlarda o qədər də təəssürat yaranmayacaq. Elə 70 il əvvəl də sovet məktəblərində bu təcrübə az da olsa, var idi. Son vaxtlar təhsil sistemimiz elə bir vəziyyətə düşüb ki, bütün faydalı fəaliyyətlər unudulub. Elə ancaq uşaqlar həddindən artıq dərslə yüklənir, müəllimlərə sənəd hazırladırlar".

**Sücayət Mehti**

# Elektron siqaretlər beyini qurudur



## ABŞ alimləri elektron siqaretlərin beyin, ürək, ağciyər və yoğun bağırsağın sağlamlığına mənfi təsirini araşdırıblar

**Kaliforniya Universitetinin San-Dieqo Tibb Məktəbinin alimləri elektron siqaretlərin beyin, ürək, ağciyər və yoğun bağırsağın sağlamlığına mənfi təsirini araşdırıblar.**

Medicina.az xəbər verir ki, araşdırmanın nəticələri elektron siqaretlərin bu orqanlarda iltihablı proseslərin inkişafına kömək etdiyini göstərib.

Tədqiqat zamanı mütəxəssislər gündə üç dəfə laboratoriya siçanlarını JUUL elektron siqaretlərinin buxarlandırıcılarının təsirinə məruz qoyublar, özü də alimlər bir neçə ən məşhur ətirlərdən, o cümlədən nanədən və manqodan istifadə ediblər. Mütəxəssislər sonra bütün bədəndə iltihab əlamətlərinə baxıblar. Məlum olub ki, ən güclü dəyişikliklər eksperimental subyektlərin beyinlərində baş verib: iltihabdan məsul olan bir neçə marker artıb.

Nəticələr həyəcan vericidir, çünki beynin narahatlıq, depressiya və asılılıq davranışları ilə əlaqəli bölgələrində iltihab müşahidə edilib ki, bu da daha pis asılılığa və maddə istifadəsinə səbəb ola bilər.

Əldə edilən nəticələr mütəxəssisləri narahat etdi, çünki iltihab narahatlıq, depressiya və asılılıq davranışlarından məsul olan beyin şöbələrində müşahidə edildi ki, bu da psixoaktiv maddələrin asılılığının və istifadəsinin ağırlaşmasına səbəb ola bilər.

Alimlər həmçinin test subyektlərinin kolonlarında iltihab faktorlarının ifadəsini tapıblar, xüsusən də elektron siqaretə məruz qaldıqdan bir ay sonra, bu, bir çox mədə-bağırsaq xəstəliklərinin inkişaf riskinin artdığını göstərir.

Ürəkdə, elm adamları iltihab markerlərinin azaldığını görüblər, lakin problem ürəyin immunosupressiv vəziyyətinin ürək toxumasını infeksiyaya daha həssas edə bilməsidir. Eksperimental siçanların ağciyərlərində elm adamları toxuma iltihabının əlamətlərini tapmayıblar, lakin nümunələrdə gen ifadəsində çoxsaylı dəyişikliklər müşahidə edilib ki, bu da elektron siqaretlərin ağciyər sağlamlığına uzunmüddətli təsirinin əlavə öyrənilməsini tələb edir.(lent.az)

Tədqiqatçılar həmçinin hər bir orqanın iltihablı reaksiyasının elektron siqaretlərin hansı ətirdən istifadə olunmasından asılı olaraq dəyişdiyini aşkar ediblər. Məsələn, nanə aerozollarını inhalyasiya edən siçanların ürəyi manqo aerozollarını inhalyasiya edənlərlə müqayisədə bakterial pnevmoniyaya daha çox həssas olub.

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, Nailə Cabarova, İlahə İbrahimova, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 1183



## Böyük Britaniya ilk dəfə..

### Özünü idarə edən avtobusu sınaqdan keçirir

**Böyük Britaniya ilk dəfə özünü idarə edən avtobusu sınaqdan keçirir.**

Azərtac xəbər verir ki, "Stagecoach" şirkəti ilk özü-özünü idarə edən avtonom avtomobili Şotlandiyada sınaqdan keçirir.

Avtobus Şotlandiyanın müxtəlif yerlərində, o cümlədən Ferrytoll Park və Ride in Fife arasında, Edinburq Park qatarı və tramvay qovşağında işləyəcək. Avtobuslar sürücü müdaxiləsi olmadan, əvvəlcədən seçilmiş sensorlu yollarla problemsiz hərəkət edəcəklər. Hər avtobusda 36 sərnişin səyahət edə bilər.

## Ağciyərindən sümük çıxdı

### İllərdir öskürəkdən əziyyət çəkirdi, qurtuldu





**Türkiyədə öskürək və sinəsindəki şiddətli ağrılarla xəstəxanaya müraciət edən kişinin sol ağciyərində toyuğun sümüyünün ilişib qaldığı müəyyən edilib.**

Medicina.az xəbər verir ki. həkimlər sümüyün artıq 5 ildir ki, Mehmet Salihin ağciyərində olduğunu deyib.

Əməliyyat nəticəsində cərrahlar sümüyü orqandan çıxarıblar. Sağlamlığına qovuşan Mehmet Sali evə buraxılıb. O artıq öskürmür.

## Türkiyədə təyyarə yaşayış sahəsinə düşüb

### Pilotlar ölüb, sakinlər arasında xəsarət alan olmayıb



**Türkiyənin Bursa şəhərində yüngülmühərrikli təyyarə qəzaya uğrayıb.**

**Trend-in məlumatına görə, hadisə nəticəsində 2 pilot həlak olub. Qeyd olunur ki, təyyarə Bursanın Osmanqazi rayonunda yaşayış evlərinin arasına düşüb. Qəzadan sonra təyyarənin düşdüyü yerdə yanğın başlayıb.**

**Qəza nəticəsində sakinlər arasında xəsarət alanların olmadığı deyilir.**

**İlkin məlumatlara görə, təlim məqsədli uçuş həyata keçirən təyyarə texniki nasazlıqla bağlı qəzaya uğrayıb.**

## Öldürülən həyat yoldaşının mirasını rədd etdi



**Türkiyəli aparıcı Ece Erkən sosial şəbəkə paylaşımıyla gündəmə gəlib.**

**Türkiyə mətbuatı xəbər verir ki, aparıcı öldürülən həyat yoldaşı Şafak Mehmetyazıcıoğlunun mirasını rədd etdiyini açıqlayıb:**

**"Ərimi çox sevdim. Rəhmətlik həyat yoldaşımı illərdir gəlir qapısı olaraq görən və hələ də elə görməyə davam edən pis insanlarla adımın yan-yana gəlməsini istəmirəm. Biz könüldən bağlıydıq, elə də qalacağıq. Mirası rədd edirəm".**

***Qeyd edək ki, Ece Erken Şafak Mahmutyazıcıoğlu ilə ötən ilin yayında evlənmişdi.***

## Dünyanın ən yaşlı sakini vəfat edib

### 1903-cü il doğumlu Tanaka pensiyaya çıxana qədər mağazada satıcı işləyib



**Yaponiyada Ginnesin rekordlar kitabına əsasən dünyanın ən yaşlı sakini hesab olunan qadın vəfat edib.**

**Trend bildirir ki, Kane Tanaka 120 yaşında dünyasını dəyişib. Onun bu il yanvarın 2-də 119 yaşı tamam olmuşdu.**

**1903-cü ildə anadan olmuş K.Tanaka 1970-ci illərdə pensiyaya çıxana qədər mağazada satıcı işləyib.**

**2006-cı ildə, 103 yaşında o, xərçəng xəstəliyindən müalicə olunub.**



# Məhəllənin qəhrəmanı oldu

### 6-cı mərtəbədən düşən uşağı ayağıyla xilas etdi

**Hadisə Ərzurumun Yakutiyə bölgəsində baş verib. "Şərq" "Milliyet.com"a istinadən xəbər verir ki, yaşadığı mənzilin artırmasında velosiped sürən kiçik Azra anidən müvazinətini itirib, başı aşağı yuvarlansa da, əlləri ilə divardan tutub. Bunu görən qonşular çığırışaraq yardım istəyiblər.**

Həmin anda yaxınlıqdan keçən 3 uşaq atası Əhməd Ceylan Azranın düşə biləcəyi yeri təxmin edərək o istiqamətə qaçıb, əllərini açaraq uşağı tutmağa çalışıb. Qısa müddət sonra barmaqları yorulan uşaq daha dayana bilməyərək aşağı yuvarlanıb. Eniş sürətli olduğundan Əhmədin qolları arasından az qala yerə çarpılacaqmış. Bu anda Əhməd ayağını irəli uzadaraq sürəti azaltmağa müvəffəq olub. Azranı pəncəsiylə saxlaya bilib. Uşaq Əhmədin pəncəsinə dəyərək yerə düşüb. Eniş sürəti yavaşladığı üçün uşaq kiçik xəsarət alıb. Xilaskarınınsa dizinin çarpaz bağları qopub. Əhməd Ceylan bunu evə gəldiyində hiss edib. Ayağında ağrı artdığından xəstəxanaya gedib və ciddi xəsarət aldığı məlum olub. Dizinə korset taxılıb. Əhməd Ceylanın kiçik qızı xilas etməsi isə dillərə düşüb. Əhməd məhəllədə qəhrəman elan edilib: "Gün boyu telefonlarım susmadı. Xəbərdən sonra tanıdığım, tanımadığım insanlar, iş yerimdən rəhbərlik də zəng edib təbrik etdilər. Azranın ailəsi də zəng etdi, minnətdarlıqlarını bildirdilər. 3 gündür yata bilmirəm. Gözümə yuxu girmir. Gözlərimi hər yumduğumda o anlar gözümün önünə təkrar gəlir. Azra yaxşılaşsın, mən də sağalacam. Allah kimsəni övladıyla imtahan etməsin. Bir neçə il əvvəl bizim də başımıza buna bənzər hadisə gəlmişdi deyə, ata-ananın xəstəxana qapısında gözləməsi nə deməkdir, bilirəm. Ümid edirəm Azra da yaxın zamanda sağalacaq, yenə oyunlar oynayacaq, qaçacaq. Biz də xoşbəxt olacağıq".

Ə.Ceylanın həyat yoldaşı Səmra, oğlu Mete də onunla qürur duyduqlarını deyiblər: "Atam yanımıza axsaya-axsaya gəldi. Birlikdə evə qayıtdıq. Sonra atamı otaqda ağlayan gördüm. Bizə hadisəni danışdı. Ayağı ağrıdığı üçün deyil, kiçik qıza görə üzüldüyünü dedi. Xəbərlərdə hadisə barədə eşitdik, atamla qürur duydum. O bizim qəhrəmanımızdı".

**Məlahət**







# Ölümcül bakteriya xəbərdarlığı...

### Heyvanlardan insanlara yoluxur

**Alimlər təhlükəli "super bakteriya" növünün donuzlardan insanlara yoluxma ehtimalıyla bağlı xəbərdarlıq edib. Bu barədə "Independent" (Türkcə) məlumat yayıb.**

Məlumatda qeyd olunur ki, fermerlərin təsərrüfatlarda təmizlik məqsədilə istifadə etdikləri antibiotik maddələr müqaviməti yüksək mikrobların ətrafa yayılmasına yol açır. Danimarkanın Statens Serum İnstitutundan Soren Persson, Kopenhagen Universitetindən Semeh Bejaoi və Dorte Frees apardıqları tədqiqat nəticəsində latın dilində "Clostridioides difficile" olan bakteriya aşkar edib. Alimlərin gəldiyi qənaət budur ki, bu bakteriya heyvanlarla insanlar arasında "gedib-gələn" antimikrobial müqavimət genləri üçün bir depo qaynağıdır. "Bu, narahatlıq doğurur. Bu, antibiotiklərə qarşı müqavimətin daha geniş sahəyə yayıla biləcəyini göstərir və təsərrüfatlardakı heyvanlardan insanlara qədər uzanan müqavimət zənciri ilə bağlı şübhələrə əsas verir", söyləyən alimlər xüsusilə donuzlar üzərində tədqiqat apardıqlarını bildiriblər. Donuzlardakı bakteriyaların insanlara keçib-keçmədiyini müəyyənləşdirmək üçün klinik analizlər götürüblər. Məlum olub ki, donuzlardan alınan ştamlar eyni vaxtda insanlardan alınan ştamlarla genetik baxımdan eynidir. Nəticə budur ki, təsərrüfatlarda istifadə edilən antibiotiklər müqavimətli ştamların inkişafına səbəb olur və bunlar insanlara da yoluxa bilir. Alimlər bu ştamların yaşlı insanlarda və sağlıq problemi olanlarda bağırsaq iltihabı və həyati təhlükə daşıyan ishala səbəb ola biləcəyini qeyd edir. Alimlər əldə etdikləri elmi nəticəni bir neçə gün sonra Lissabonda keçiriləcək Avropa Kliniki Mikrobiologiya və Yoluxucu Xəstəliklər Konqresinə təqdim edəcək. Xərçəng xəstəliyinə nəzarət Beynəlxalq Təşkilatı isə dərman preparatlarına müqavimətli infeksiyaların hər il 750 min insanın ölümünə səbəb olduğunu, 2050-ci ilədək ölüm sayının 10 milyonu haqlayacağını təxmin edir.

**Məlahət**

## Müğənni qızına toy etdi

**Müğənni Qriqoriy Leps 37 yaşlı qızı İnqaya toy edib.**

Axşam.az xəbər verir ki, İnqa 32 yaşlı aktyor və rejissor Mixail Plutahinlə ailə qurub. Məclis dəbdəbədən kənar təşkil edilib. Toyda ancaq gəlinlə bəyin yaxınları yer alıblar. İnqa bildirib ki, Mixaillə tanış olmazdan əvvəl heç vaxt ailə qurmaq haqda düşünməyib.

*Qeyd edək ki, İnqa Lepsin ilk xanımı Svetlano Dubinskidən olan qızıdır.*



## Qadın "Qasırğa" attraksionundan yıxılıb

### Son vaxtlar eyni parkda baş verən artıq ikinci analoji hadisədir



**Rusiyanın Omsk şəhərində azyaşlı qızı ilə parka gələn qadın "Qasırğa" attraksionundan yıxılıb.**

O, hərəkətdə olan yelləncəkdən "uçaraq" attraksionun ətrafındakı dəmir hasarın o tayına düşüb.

Oxu.az xəbər verir ki, qadının özünü qeyri-adekvat apardığı bildirilib.

Xəstəxanaya aparılan xanımın özündə olduğu, lakin ciddi xəsarətlər aldığı qeyd edilib.

*Yayılan məlumatlara görə, bu, son vaxtlar eyni parkda baş verən artıq ikinci analoji hadisədir.*

## İspaniya dünyanın ikinci ən səs-küylü ölkəsidir



**İspaniya səs-küy çirklənməsinə görə Yaponiyadan sonra ikinci və Avropa İttifaqında isə lider ölkədir.**

Azərtac xəbər verir ki, bu barədə İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (İƏİT) hesabatında bildirilir.

İƏİT-in məlumatlarına əsasən, Avropa əhalisinin 20 faizi, yəni hər beş nəfərdən biri səs-küy səviyyəsinin sağlamlıq üçün zərərli hesab edildiyi ərazilərdə yaşayır.

Səs-küy və ya akustik çirklənmə ətraf mühitdə baş verən və sağlamlığımıza, fəaliyyətimizin inkişafına və ya birbaşa ətraf mühitə mənfi təsir göstərə bilən səslər və ya vibrasiyalardır. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) səs-küyü 65 desibeldən yuxarı hər hansı bir səs kimi təyin edir və 75-i keçərsə, insan qulağı üçün zərərli, 120 desibelə çatdıqda isə ağrılı sayılır. Xüsusilə, ÜST rahat yuxu üçün gün ərzində 65 dB-dən, gecə isə 30 dB-dən çox olmamağı tövsiyə edir.

Avropa Ətraf Mühit Agentliyi (EEA) səs-küy çirklənməsinin ildə 16 min 600 vaxtından əvvəl ölümə və 72 mindən çox xəstəxanaya yerləşdirilməsinə səbəb olduğunu təxmin edir.

Barselona Qlobal Sağlamlıq İnstitutunun (ISGlobal) araşdırması göstərir ki, təxminən 60 milyon insan avtomobillərdən gələn zərərli səs-küyə məruz qalır.

İspaniyada bu problemlə mübarizəyə yönəlmiş yerli və regional qaydalara əlavə olaraq, on ildən artıqdır ki, Səs-küy haqda Qanunu mövcuddur. Madrid və Barselona administrasiyaları artıq öz vətəndaşlarını nəqliyyatın çirklənməsindən və səs-küydən qorumaq üçün aşağı emissiya zonası (ZBE) təyin ediblər. Valensiya və Valyadolid hakimiyyətləri isə şəhərin müxtəlif ərazilərində akustik mühafizə kimi bitki örtüyündən istifadə etməyə hazırlaşır. Əslində, yaşıl maneələr düzgün layihələnərsə, trafikin səs-küyünü 50 faizə qədər azaldır.

25 aprel Beynəlxalq Səs-küy Günüdür, gəlin onu həyatımızın səsini azaldaraq qeyd edək.